Azərbaycan Respublikasının
Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi

UNFPA

# AZƏRBAYCAN RESPUBLİKASI ÜÇÜN FƏAL YAŞLANMA İNDEKSİ (FYİ)

## AVROPA İTTİFAQI ÖLKƏLƏRİ İLƏ MÜQAYİSƏLİ TƏHLİL



BAKI - 2021

“Azərbaycan üçün Fəal Yaşlanma İndeksi: Avropa İttifaqı ölkələri ilə müqayisəli təhlil” Hesabatı BMT-nin Əhali Fondu və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi” birgə layihəsi çərçivəsində hazırlanıb.

# MÜƏLLİFLƏR

**Asghar Zaidi**, Böyük Britaniya, Oksford Universiteti, Əhalinin Yaşlanması Oksford İnstitutunun tədqiqatçısı, dosentliyə namizəd və Pakistan, Lahor Hökumət Kolleci Universiteti, Vitse-kansler
**Dr Jinpil Um**, Cənubi Koreya, Sosial Rifah İnstitutunun tədqiqatçısı, Seul Milli Universiteti

Texniki məsləhətçilər:
Nərminə Məlikova, proqram müşaviri, BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi
Nailə Cəfərova, layihə meneceri, BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi

# MINNƏTDARLIQ

BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi hesabatın hazırlanmasında göstərdiyi mütəmadi dəstək üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Dövlət Statistika Komitəsinə təşəkkür edir və hər iki qurumun davamlı əməkdaşlığını yüksək qiymətləndirir.

Hesabatın hazırlanmasında mühüm rol oynayan məsləhətlərini və dəyərli köməyini əsirgəməyən BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya Regional Ofisinin regional məsələlər üzrə məsləhətçisi cənab Eduard Jongstraya dərin minnətdarlığımızı bildiririk.

Hesabatın ərsəyə gəlməsində rolu danılmaz olan sorğu respondentlərinə, eləcə də müsahibə qrupuna təşəkkür edirik.

İstinad üçün tövsiyə olunan mənbə: BMTƏF (2021) “Azərbaycan üçün Fəal Yaşlanma İndeksi: Aİ ölkələri ilə müqayisəli təhlil”.

Redaktor və korrektor (İngilis dili): Tara Bray
Dizayn: Victoria Wren.

© BMTƏF, BMT-nin Əhali Fondu, 2021

Hesabatda əks olunmuş fikir və mülahizələr müəlliflərə məxsusdur və BMT-nin Əhali Fondunun və ya Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi  mövqeyini əks etdirməyə bilər.

# MÜNDƏRİCAT

Ümumi məlumat 5

**1** Giriş 7

**2** Azərbaycanda əhalinin yaşlanması ilə əlaqəli nailiyyətlər və çətinliklər 9
2.1 Gözlənilən ömür uzunluğunun artması 9
2.2 Nəsilvermənin azalması 10
2.3 Ailə strukturunda dəyişiklik 12
2.4 Nə üçün Azərbaycanda fəal yaşlanma diqqət mərkəzində saxlanılmalıdır 12

**3** FYİ yaşlılıq dövründə fəal yaşlanmanın monitorinq vasitəsi kimi 15
3.1 Fəal yaşlanma konsepsiyası 15
3.2 Fəal Yaşlanma İndeksi (FYİ) nədir? 16
3.3 Tədqiqat nümunəsinin xüsusiyyətləri 19

**4** Azərbaycan üçün FYİ-nin əsas nəticələri 21
4.1 Məşğulluq 26
4.2 Cəmiyyətdə iştirakçılıq 26
4.3 Müstəqil, sağlam və təhlükəsiz həyat 27
4.4 Fəal yaşlanma potensialı və fəal yaşlanmaq üçün əlverişli mühit 28

**5** Müzakirə və nəticələrin ümumiləşdirilməsi 29

**6** İstinadlar 31

**ƏLAVƏ A1:** SORĞU ANKETİ – FYİ 33

**ƏLAVƏ A2:** AZƏRBAYCAN, 28 Aİ ÖLKƏSİ, ÇİN VƏ CƏNUBİ KOREYA ÜZRƏ FYİ VƏ SAHƏLƏRİNƏ XAS HESABLAMALARIN NƏTİCƏLƏRİ 44

**ƏLAVƏ A3:** AZƏRBAYCAN, 28 Aİ ÖLKƏSİ, ÇİN VƏ CƏNUBİ KOREYADA YAŞLI KİŞİLƏR ÜZRƏ FYİ VƏ SAHƏLƏRİNƏ XAS HESABLAMALARIN NƏTİCƏLƏRİ 45

**ƏLAVƏ A4:** AZƏRBAYCAN, 28 Aİ ÖLKƏSİ, ÇİN VƏ CƏNUBİ KOREYADA YAŞLI QADINLAR ÜZRƏ FYİ VƏ SAHƏLƏRİNƏ XAS HESABLAMALARIN NƏTİCƏLƏRİ 46

## CƏDVƏLLƏR

**CƏDVƏL 1:** 1970-2020-ci illərdə Azərbaycanda gözlənilən ömür uzunluğu 10
**CƏDVƏL 2:** 1999 və 2009-cu illər əhali siyahıyaalmaları arasında hər ailəyə düşən uşaq sayında dəyişikliklər 13
**CƏDVƏL 3:** Tədqiqat nümunəsinin xüsusiyyətləri (n=2002) 19
**CƏDVƏL 4:** Aİ ölkələri, Çin və Cənubi Koreya ilə müqayisəli şəkildə Azərbaycan üçün ümumi və sahələr üzrə FYİ nəticəsi 24

## QRAFİKLƏR

**QRAFİK 1:** 1980-2050-ci illərdə Azərbaycanda yaşı 60 və yuxarı olan şəxslərin faiz nisbəti 9
**QRAFİK 2:** Qonşu ölkələr ilə müqayisədə Azərbaycanda 60 yaşlı kişilər üçün gözlənilən ömür uzunluğu 10
**QRAFİK 3:** Qonşu ölkələr ilə müqayisədə Azərbaycanda 60 yaşlı qadınlar üçün gözlənilən ömür uzunluğu 11
**QRAFİK 4:** Ermənistan və Gürcüstan ilə müqayisədə Azərbaycanda 1955-2020-ci illər arasında nəsilvermə əmsalı 11
**QRAFİK 5:** UNECE/EC Fəal Yaşlanma İndeksinin (FYİ) sahə və indikatorları 17
**QRAFİK 6:** Azərbaycanın ümumi və 28 Aİ ölkəsinin ortalama FYİ dəyərlərinə töhfələrinin müqayisəsi 22
**QRAFİK 7:** 28 Aİ ölkəsi, Çin və Cənubi Koreya ilə müqayisədə Azərbaycanın Fəal Yaşlanma İndeksi 23

## AKRONİMLƏR

**Aİ** Avropa İttifaqı
**AK** Avropa Komissiyası
**ASEAN** Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası
**BMTƏF** BMT-nin Əhali Fondu
**BMTİP** Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı
**BMT** Birləşmiş Millətlər Təşkilatı
**DB** Dünya Bankı
**DE EMPL** Avropa Komissiyasının Məşğulluq, Sosial Məsələlər və Genişlənmə Danışıqları Baş Direktorluğu
**DSK** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
**FYİ** Fəal Yaşlanma İndeksi
**İİİ** İnsan İnkişafı İndeksi
**İKT** Informasiya və Kommunikasiya Texnologiyaları
**MIPAA** Yaşlanma üzrə Beynəlxalq Madrid Fəaliyyət Proqramı
**UNECE** BMT-nin Avropa üzrə İqtisadi Komissiyası
**UNESCAP** BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyası
**ÜST** Ümumdünya Səhiyyə Təşkilatı

# ÜMUMİ MƏLUMAT

Ölkələrin iqtisadi və sosial inkişafına və tərəqqisinə töhfə vermək potensialı nöqteyi-nəzərindən yaşlı nəsil əhəmiyyətli bir mənbə hesab olunur. Bunun mərkəzində insanların yaşlandıqca cəmiyyətin fəal üzvü kimi proseslərdə iştiraka davam etməsinə imkan yaradan və bunun da öz növbəsində onlara öz işlərini və sosial öhdəliklərini daha da məmnuniyyətlə icra edərək sağlamlıqlarını qorumalarını, eləcə də gündəlik həyatlarında daha müstəqil olmalarını təmin edən fəal yaşlanma ideyası dayanır.

Fəal yaşlanmanın müsbət paradiqması yaşlı insanların nə dərəcədə fəal olması və yaşadıqları mühitin onların fəal yaşlanmasına nə dərəcədə şərait yaratması ilə əlaqəli araşdırmanın müvafiqliyini nümayiş etdirir. Ölkələrdə fəal yaşlanma ilə bağlı gələcəyə yönəlik siyasət prioritetlərini daha yaxşı anlamaq üçün bu sahədə mövcud vəziyyət ilə bağlı müvafiq dəlillərin toplanılması zəruridir. Fəal Yaşlanma İndeksinin (FYİ) analitik çərçivəsi məlumatların toplanılması prosesini asanlaşdırır.

Hesabatda 2014-cü ildə 28 Avropa İttifaqı (Aİ) ölkəsini əhatə edən FYİ-nin hazırlanması üçün istifadə olunan metodologiyanın tətbiq edilməsilə Azərbaycanda ilk dəfə hazırlanan FYİ haqqında təfsilatlı məlumat verilir (Zaidi və digərləri, 2013; UNECE/EC, 2015). FYİ ilk dəfə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) və Avropa Şurasının (AŞ) dəstək verdiyi bir layihədə 2012 Avropa Fəal Yaşlanma İli və Nəsillərarası Həmrəylik kontekstində istifadə olunub. Hesabatda eyni təriflərdən istifadə olunaraq ümumilikdə FYİ və onun sahələrinə aid indekslərin təhlili çərçivəsində Aİ-nin üzv dövlətləri ilə müqayisədə Azərbaycandakı nisbi vəziyyət nəzərdən keçirilir.

Azərbaycanın FYİ 2020-ci ilin oktyabr ayında yaşı 55 və yuxarı olan 2002 şəxs arasında aparılan sorğunun nəticələri əsasında hazırlanıb. Sorğu iştirakçıları bütövlükdə Azərbaycan üçün reprezentativ hesab edilən doqquz fərqli bölgədən təsadüfi şəkildə seçiliblər.

“55 yaşında qalan ömür uzunluğu” və “55 yaşında qalan ömür müddətində sağlam həyat illərinin payı” kimi indikatorlar Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumat bazasından götürülüb. “Nisbi orta gəlir” və “Yoxsulluq riskinin olmaması” kimi maddi rifah indikatorları Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (DSK) tərəfindən təmin edilib. Azərbaycan üçün FYİ-nin hesablanmasında hər bir indikator və sahə üçün 28 Aİ ölkəsində istifadə olunan eyni birbaşa çəki tətbiq edilib.

> **Ölkələrin iqtisadi və sosial inkişafına və tərəqqisinə töhfə vermək potensialı nöqteyi-nəzərindən yaşlı nəsil əhəmiyyətli bir mənbə hesab olunur.**

Azərbaycanın FYİ ölkədəki yaşlı insanların məşğulluq səviyyəsinin 28 Aİ ölkəsindəki eyni sahə üzrə göstəriciləri ilə müqayisədə aşağı olduğunu göstərir. Bununla belə, "Cəmiyyətdə iştirakçılıq" və "Fəal yaşlanma potensialı və fəal yaşlanma üçün əlverişli mühit" kimi iki sahədə Azərbaycandakı vəziyyət Aİ ölkələri ilə müqayisədə daha qənaətbəxşdir. Məşğulliq səviyyəsinin aşağı olması yaşlı insanların müvafiq iş imkanlarının məhdud olması səbəbindən iş tapmaqda çətinlik çəkməsi ilə səciyyələnir və bu, daha çox yaşlı qadınların məşğulluq vəziyyətlərində özünü büruzə verir.

Əksər Aİ ölkəsindəki eyni fenomenlə müqayisədə Azərbaycandakı yaşlı insanlar nəvələrinin və ya ailənin daha yaşlı üzvlərinin qayğısına qalmaqda daha çox iştirak etdiyini bildirib.

Bunun səbəbi Azərbaycanda dövlət tərəfindən təmin edilən uşaq baxımı xidməti və yaşlı insanlara uzunmüddətli qayğı xidmətlərinin hələ də kifayət qədər təkmil olmaması ilə bağlı ola bilər. Aİ-dakı ortalama göstəricilər ilə müqayisədə Azərbaycandakı yaşlı insanlar daha tez-tez fiziki fəaliyyətlərdə iştirak edir. Bununla bərabər, hal-hazırda Azərbaycandakı yaşlı insanlar üçün tibbi və uzunmüddətli qayğı ehtiyacları qarşılanmır və hökumət bu sahəyə təcili diqqət ayırmalıdır.

Azərbaycan üçün hazırlanan FYİ Avropa İttiqaqına üzv olmayan ölkələrdə FYİ çərçivəsinin istifadə olunmasının məqsədəuyğunluğunu, bu alətin ölkədəki fəal yaşlanma məfhumu ilə bağlı məlumatlılığın artırılması və bu sahədə dəyişikliklərin monitorinqinin aparılması üçün nə dərəcədə faydalı olduğunu nümayiş etdirir. Bu Hesabatdakı təhlillər göstərir ki, yaşlı insanlar üçün səmərəli sosial təminat sisteminin təmin edilməsi üçün sürətlə yaşlanan cəmiyyətlərdəki çağırışlara cavab vermək, yaşlı insanların həyat keyfiyyətini yüksəltmək və yaşlanan cəmiyyətin müvafiq ehtiyaclarını qarşılamaq üçün fəal yaşlanma ideyası və prinsiplərini əlaqələndirmək çox vacibdir. Azərbaycan kontekstinə uyğunlaşdırılmış FYİ indikatorlarının hazırlanması və fəal yaşlanmanın sosial determinantları ilə əlaqəli cəmiyyətin mədəniyyət xüsusiyyətləri nəzərə alınmaqla əlavə araşdırmaların aparılması tövsiyə olunur.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən ev təsərrüfatı sorğularının, eləcə də uzunmüddətli müayinələrin[1] həyata keçirilməsilə mütəmadi olaraq əhalinin fəal yaşlanmasının monitorinqinin aparılması və bununla da mövcud olan məlumat boşluqlarının aradan qaldırılmasını təmin etmək və bu sahədə inkişaf tempinin təhlilini aparmaq tövsiyə olunur.

1 Uzun bir zaman kəsiyində müəyyən bir qrup obyektlərdə (məsələn, eyni bir ev təsərrüfatlarında və ya ailələrdə) eyni müayinənin (sorğunun) aparılması

# 1 GİRİŞ

Demoqrafik inkişaf baxımından Azərbaycan Cənubi Qafqazda ən dinamik ölkədir. Davam edən demoqrafik keçid baxımından ölkə "Yaşlanan Cəmiyyət" hesab edilir,[2] belə ki, əhalinin 10-19%-i 60 və daha yuxarı yaş həddində olan insanlardır.

Azərbaycanda müşahidə olunan orta ömür müddətinin uzanması və doğum səviyyəsinin azalması əhalinin yaş strukturunda yaşlıların payının artmasına səbəb olub, yaşlı insanların (60 və daha yuxarı yaş həddi) xüsusi çəkisi 2020-ci ildə 11.6%-ə çatıb. (BMT, 2019).

Güclü iqtisadi inkişafa baxmayaraq, Azərbaycanda yaşlı insanların rifahı ilə bağlı aran bir narahatlıq var. Bu narahatlığı aradan qaldırmaq üçün hökumət son onillikdə keyfiyyətli yaşlanmanın mühümlüyünü öz milli məqsədlərindən biri kimi təşviq edir. Milli siyasətin əsas məqsədi yaşlı əhali üçün pensiyanın baza hissəsi və sosial yardım kimi sosial təminatları yaxşılaşdırmaq və sosial müavinətləri təşviq etməkdir. Yaşlı insanların rifahını diqqət mərkəzində saxlamaq bir çox Avropa ölkəsində qəbul edilmiş fəal və sağlam yaşlanma strategiyasının əsas elementlərini əks etdirir. (Walker və Zaidi, 2016).

Buna baxmayaraq, Azərbaycanda fəal və sağlam yaşlanmanın ölçülməsi və təşviq edilməsi ilə bağlı kompleks və vahid sistem mövcud deyil. Məşğulluq, yoxsulluq və həyatdan məmnunluq kimi keçmişdə istifadə olunan bir sıra fərdi indikatorların yaşlı insanların faktiki vəziyyətini müəyyən etmək üçün tətbiq edilməsində məhdudiyyətlər müşahidə olunur. Yaşlılıq dövründə həyat keyfiyyətinin, eləcə də fəal və sağlam yaşlanmanın həqiqi mənası ilə bağlı Azərbaycanda ictimai fikir birliyi olmasa da, əmək bazarında iştirak, müstəqil həyat, sosial fəaliyyətlərdə iştirak və fəal yaşlanma üçün əlverişli mühitin təmin edilməsini əhatə edən fəal yaşlanmanın qiymətləndirilməsi üçün bir metodologiyanın hazırlanmasına tələbat artmaqdadır.

> **"Azərbaycanda müşahidə olunan orta ömür müddətinin uzanması və doğum səviyyəsinin azalması əhalinin yaş strukturunda yaşlıların payının artmasına səbəb olub, yaşlı insanların (60 və daha yuxarı yaş həddi) xüsusi çəkisi 2020-ci ildə 11.6%-ə çatıb. (BMT, 2019).**

Bu məqsədə nail olmaq üçün Hesabatda 28 Avropa İttifaqı (Aİ) ölkəsini əhatə edən Fəal Yaşlanma İndeksinin (FYİ) hazırlanması üçün istifadə olunan metodologiyanın tətbiq olunması ilə Azərbaycanda ilk dəfə

2 "HelpAge International"a görə (2015), yaşlı insanların xüsusi çəkisinə əsasən dörd fərqli cəmiyyət növü mövcuddur. *Gənc Cəmiyyət:* əhalisinin 10%-dən azı 60 və daha yuxarı yaş həddindədir; *Yaşlanan Cəmiyyət:* əhalisinin 10-19%-i 60 və daha yuxarı yaş həddindədir; *Sürətlə Yaşlanan Cəmiyyət:* əhalisinin 20-29%-i 60 və daha yüksək yaş həddindədir və *Hiper-sürətlə Yaşlanan Cəmiyyət:* əahlinin 30%-i 60 və daha yüksək yaş həddindədir.

> **“Beləliklə, FYİ ölkələrarası əməkdaşlıq və Avropa ölkələri ilə Azərbaycan arasında ən yaxşı təcrübələrin mübadiləsi və qanunvericilik bazasının öyrənilməsi üçün imkan yaradır.**

hazırlanan FYİ barədə təfsilatlı məlumat verilir (Zaidi və digərləri, 2013; UNECE/EC, 2015). Hesabatda FYİ-nin təhlili məqsədilə “yaşlı insanlar” termini 55 və daha yuxarı yaşda olan insanlar üçün istifadə olunur, belə ki, bu, Aİ FYİ indikatorlarının əksəriyyətində istifadə olunan yaş məhdudiyyətidir. FYİ təhlillərinə pensiya yaşına çatmamış yaş qrupunu daxil edərək, Hesabat daha böyük bir yaşlı qrupun fəaliyyət və iştirakçılığı barədə daha əhatəli və geniş fikir təqdim edir. Hesabatda eyni təriflərdən istifadə olunaraq ümumilikdə FYİ və onun sahələrinə aid indekslərin təhlili çərçivəsində Aİ ölkələri ilə müqayisədə Azərbaycandakı nisbi vəziyyət nəzərdən keçirilir.

Hesabatda istifadə olunan FYİ çərçivəsi Azərbaycanda yaşlanmanın təhlilini artırmaq üçün bir sıra imkanlar təqdim edir:

- Birincisi, ödənişli əmək fəaliyyəti, eləcə də ödənişsiz fəaliyyətləri sayəsində yaşlı insanların cəmiyyətə verdiyi töhfə də daxil olmaqla, fəal və sağlam yaşlanma fenomeninin çoxölçülü xüsusiyyətlərini nəzərə çatdırır.
- İkincisi, fəal yaşlanma üçün potensialı və əlverişli mühiti əhatə edən sahənin təqdim edilməsi vasitəsilə insan kapitalı və sosial kapitalın, eləcə də fəal və sağlam yaşlanma üçün zəruri olan dəstəkləyici mühitin nəzərə alınmasını təmin edir.
- Üçüncüsü, fəal və sağlam yaşlanmanın müxtəlif aspektlərində yaşlı insanların istifadə olunmamış potensialı baxımından Azərbaycanı Avropa ölkələri ilə müqayisə etmək imkanı yaradır.

Beləcə, Hesabatda Azərbaycan üçün hazırlanmış FYİ Azərbaycanda fəal yaşlanmanın təşviq edilməsi və digər ölkələrin (Avropa) bu sahədəki siyasətinin üstünlüklərinin qiymətləndirilməsi üçün çox vacib töhfədir. Beləliklə, FYİ ölkələrarası əməkdaşlıq və Avropa ölkələri ilə Azərbaycan arasında ən yaxşı təcrübələrin mübadiləsi və qanunvericilik bazasının öyrənilməsi üçün imkan yaradır. Bundan əlavə, indikatorların seçilməsi və nisbi çəkilərin təyin edilməsi ilə əlaqədar olaraq FYİ metodologiyasının qeyri-Avropa ölkələri üçün uyğunluğunu təmin etmək məqsədilə bu Hesabatın hazırlanması üçün FYİ metodologiyası daha da təkmilləşdirilib (Bax: Zaidi və Um, 2019 və Zaidi və Um, 2021, ASEAN ölkələr ilə bağlı tədqiqat nümunələri əsasında UNESCAP üçün görülmüş iş).

# 2 AZƏRBAYCANDA ƏHALİNİN YAŞLANMASI İLƏ ƏLAQƏLİ NAİLİYYƏTLƏR VƏ ÇƏTİNLİKLƏR

Son 20 il ərzində Azərbaycanda yaşlı insanların sayı və nisbəti əhəmiyyətli dərəcədə artmışdır. Ölkədə əhalinin yaşlanması 1990-cı illərdə o qədər də nəzərəçarpan deyildi, belə ki, yaşı 60 və yuxarı olan insanların xüsusi çəkisi 1990-cı ildə sadəcə 7.9% idi (BMT, 2019). Otuz il sonra, 2020-ci ildə, bu rəqəm 11.6%-ə çatdı (Qrafik 1). Əhalinin yaş strukturu nisbətən gənc olsa da, əhalinin yaşlanma sürəti qonşu ölkələr ilə müqayisədə çox yüksəkdir və Azərbaycanın 2040-cı ilə kimi "Sürətlə yaşlanan cəmiyyət" olacağı gözlənilir.

## 2.1 GÖZLƏNİLƏN ÖMÜR UZUNLUĞUNUN ARTMASI

Gözlənilən ömür uzunluğunun artması əhalinin yaşlanmasını şərtləndirən əsas amillərdən biridir. İqtisadi inkişaf və həyat səviyyəsinin yüksəlməsi ilə yanaşı qabaqcıl tibbi avadanlıqlar və sanitar sistemi ümumi ölüm səviyyəsinin aşağı düşməsinə səbəb olub və bu da yaşlı əhalinin sayının sürətlə artması ilə nəticələnib. Azərbaycanda gözlənilən ömür uzunluğu həm qadınlar, həm də kişilər üçün artıb (Cədvəl 1). 1970-ci ildən 2020-ci ilə kimi ölkədə yeni doğulanlar, eləcə də yaşı 60 olanlar üçün gözlənilən ömür uzunluğunun artması müşahidə olunub (BMT, 2019). Ümumi olaraq qadınlar kişilər ilə müqayisədə daha çox yaşayır və 60 yaşda

QRAFİK 1: 1980-2050-ci İLLƏRDƏ AZƏRBAYCANDA YAŞI 60 VƏ YUXARI OLAN ŞƏXSLƏRİN FAİZ NİSBƏTİ




*Mənbə: BMT, İqtisadi və Sosial İşlər Departamenti, Əhali Bölməsi (2019)*

CƏDVƏL 1: **1970-2020-ci İLLƏRDƏ AZƏRBAYCANDA GÖZLƏNİLƏN ÖMÜR UZUNLUĞU**

| İl | 1970 | 1990 | 2020 |
|---|---|---|---|
| Yeni doğulan ümumi əhali | 63.5 | 64.6 | 72.8 |
| Yeni doğulan qızlar | 66.8 | 69 | 75.3 |
| Yeni doğulan oğlanlar | 59.9 | 60.1 | 70.3 |
| 60 yaşında olan ümumi əhali | 17.8 | 17.8 | 18.5 |
| 60 yaşında olan qadınlar | 18.7 | 19.6 | 19.9 |
| 60 yaşında olan kişilər | 15.6 | 15.5 | 17 |

*Mənbə: BMT, İqtisadi və Sosial İşlər Departamenti, Əhali Bölməsi (2019)*

gözlənilən ömür uzunluğu həm kişilər, həm də qadınlar üçün artır.

Qonşu ölkələr ilə müqayisədə Azərbaycanda yaşlı kişilərin gözlənilən ömür uzunluğu artır və sürətlə Ermənistandakı göstəricilərə yaxınlaşır (Qrafik 2). Bununla yanaşı, Azərbaycanda 60 yaşlı qadınlar üçün gözlənilən ömür uzunluğu Ermənistan və Gürcüstandakı eyni göstəricidən aşağıdır. (Qrafik 3).

## 2.2 NƏSİLVERMƏNİN AZALMASI

Azərbaycanda əhalinin yaşlanmasını şərtləndirən digər və daha vacib amil ümumi nəsilvermə əmsalının aşağı düşməsidir (Qrafik 4). Azərbaycanda əhalinin sayı artmaqda davam edir, lakin bununla yanaşı nəsilvermə əmsalı sürətlə azalaraq cəmi 35 ildə hər qadına 6.0 uşaqdan 2.25 uşağa düşüb. 2003-cü ildən sonra əhalinin sosial rifahının yaxşılaşması nəsilvermənin artması ilə yanaşı ailələrin təxirə salınmış uşaq dünyaya gətirmək planlarını gerçəkləşdirməsinə də müsbət təsir göstərdi. Bu, 2005-ci ildə hər qadına təxminən 2.1 uşaqda sabitləşən doğum əmsalının davamlı artması ilə nəticələndi. Lakin doğum əmsalı yenidən azalmağa başladı və 2018-ci ildə əvəzetmə səviyyəsindən aşağı düşərək hər qadına 1.8 uşaq oldu (Verdiyeva, 2019).

QRAFİK 2: **QONŞU ÖLKƏLƏR İLƏ MÜQAYİSƏDƏ AZƏRBAYCANDA 60 YAŞLI KİŞİLƏR ÜÇÜN GÖZLƏNİLƏN ÖMÜR UZUNLUĞU**




*Mənbə: BMT, İqtisadi və Sosial İşlər Departamenti, Əhali Bölməsi (2019)*

QRAFİK 3: **QONŞU ÖLKƏLƏR İLƏ MÜQAYİSƏDƏ AZƏRBAYCANDA 60 YAŞLI QADINLAR ÜÇÜN GÖZLƏNİLƏN ÖMÜR UZUNLUĞU**




*Mənbə: BMT, İqtisadi və Sosial İşlər Departamenti, Əhali Bölməsi (2019)*

QRAFİK 4: **ERMƏNİSTAN VƏ GÜRCÜSTAN İLƏ MÜQAYİSƏDƏ AZƏRBAYCANDA 1955-2020-ci İLLƏRDƏ ARASINDA NƏSİLVERMƏ ƏMSALI**




*Mənbə: BMT, İqtisadi və Sosial İşlər Departamenti, Əhali Bölməsi (2019)*

## 2.3 AİLƏ STRUKTURUNDA DƏYİŞİKLİK

Son 30 ildə Azərbaycanda ailə tərkibinin genişlənməsi müşahidə olunur. 1999 və 2009-cu il əhali siyahıyaalınmalarının nəticələrinə əsasən 18 yaşınadək uşaqları olan ailələrin (ev təsərrüfatları) ümumi sayında artım olsa da (3%), üç və dörd uşaqlı ailələrin sayı 20%, dörd və daha çox uşaqlı ailələrin sayı isə 41% azalıb (Cədvəl 2). Qeyd edilən müddət ərzində üç və daha çox uşaqlı ailələrin faiz göstəricisi 26%-dən 20%-ə, dörd və çox uşaqlı ailələrin faiz göstəricisi 17%-dən 10%-ə düşüb.

Bu demoqrafik meyillər yaşlı insanların baxıma olan tələbatları və bu tələbatın qarşılanması üçün müvafiq qayğı xidmətlərinin mövcudluğu arasında bir balansın olmamasına səbəb ola bilər. Yaşlı insanlara ailə üzvləri tərəfindən ənənəvi olaraq təmin edilən baxım gələcəkdə dövlət tərəfindən bu cür xidmətlərin təmin edilməsi sahəsində boşluğun yaranması ilə nəticələnən çətinliklərlə üzləşə bilər (Qureshi və Walker, 1989). Ailə strukturundakı dəyişikliklər səbəbilə ailələrdə nəsillərarası həmrəyliyin və dəstəyin zəifləməsi ilə bağlı narahatlıq artmaqdadır, bu da ailələrin yaşlı üzvlərinə baxım ilə bağlı gözləntilərinin artması və onlara bu baxımı təmin etmək qabiliyyətləri arasında ziddiyyətin yaranmasına səbəb olur.

## 2.4 NƏ ÜÇÜN AZƏRBAYCANDA FƏAL YAŞLANMA DİQQƏT MƏRKƏZİNDƏ SAXLANILMALIDIR

Bu günün yaşlı insanları sadəcə öz rifahlarını yaxşılaşdırmaq potensialı ilə səciyyələnmir, onlar həm də vətəndaşı olduqları ölkələrin iqtisadi və sosial inkişafına töhfə vermək iqtidarında olan nəsildir. Fəal və sağlam yaşlanmanın əsl mahiyyəti sağlam şəkildə yaşlanmaq imkanına sahib olmaq, cəmiyyətin fəal üzvü olmaqda davam etmək, işini və sosial öhdəlikləri yerinə yetirməkdən məmnun olmaq, gündəlik həyatında müstəqil olmaq və bununla bir vətəndaş olaraq cəmiyyətin inkişafına töhfə verməkdir.
Bu potensialın reallaşdırılması məqsədilə insanların həyatı boyu cəmiyyətdə iştirakçı və məhsuldar olması üçün imkanlar yaradan əlverişli mühit formalaşdırılmalıdır. (Walker və Zaidi, 2017).

Əhalinin yaşlanmasını nəzərə alaraq yaşlı insanların həyat keyfiyyətləri, eləcə də onların həyat tərzi və sosial rolları ilə bağlı tədqiqatların aparılması zaman keçdikcə daha çox əhəmiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən, Azərbaycanda müvafiq statistik məlumatların toplanılması və təhlil olunması zəruridir. Fəal yaşlanmanın tədqiq olunması sadəcə yaşlı insanlar üçün yox, eyni zamanda gənc nəsil üçün də mühümdür, çünki gələcəkdə sağlam həyat tərzi sürmək və sosial əlaqələr qurmaq üçün gənclik illərində müvafiq addımlar atılmalıdır. Növbəti bölmədə konsepsiyası, metodu, strukturu və əsas indikatorları da daxil olmaqla FYİ ilə bağlı tədqiqatın əsasları təqdim olunur.

CƏDVƏL 2: **1999 VƏ 2009-cu İLLƏR ƏHALİ SİYAHIYAALMALARI ARASINDA HƏR AİLƏYƏ DÜŞƏN UŞAQ SAYINDA DƏYİŞİKLİKLƏR**

| | 18 yaşınadək uşaqları olan ev təsərrüfatları (min) | | | | | |
|---|---|---|---|---|---|---|
| | Ümumi | | Şəhər | | Kənd | |
| | 2009 | 1999-cu il ilə müqayisədə | 2009 | 1999-cu il ilə müqaysədə | 2009 | 1999-cu il ilə müqayisədə |
| **Ümumi** | **1314.5** | **+2.8%** | **680.7** | **+3.3%** | **633.8** | **+2.2%** |
| Bunlardan: | | | | | | |
| Bir uşaqlı | 396.0 | +37.4% | 226.9 | +31.8% | 169.1 | +45.7% |
| Iki uşaqlı | 529.9 | +17.6% | 276.6 | +11.3% | 253.2 | +25.3% |
| Üç uşaqlı | 261.9 | -19.7% | 120.3 | -19.3% | 141.6 | -20.1% |
| Dörd və daha çox uşaqlı | 126.7 | -40.8% | 58.8 | -36.3% | 69.9 | -44.0% |

| | 18 yaşınadək uşaqları olan ev təsərrüfatları (min) | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2009 | 1999 | 2009 | 1999 | 2009 | 1999 |
| **Ümumi** | **100** | **100** | **100** | **100** | **100** | **100** |
| Bunlardan: | | | | | | |
| Bir uşaqlı | 30.1 | 22.5 | 33.3 | 26.1 | 26.7 | 18.7 |
| Iki uşaqlı | 40.3 | 35.2 | 40.7 | 37.7 | 40.0 | 32.6 |
| Üç uşaqlı | 19.9 | 25.5 | 17.7 | 22.6 | 22.3 | 28.6 |
| Dörd və daha çox uşaqlı | 9.7 | 16.7 | 8.3 | 13.5 | 11.0 | 20.1 |

*Mənbə: Dövlət Statistika Komitəsi (2009)*

# 3 FYİ YAŞLILIQ DÖVRÜNDƏ FƏAL YAŞLANMANIN MONİTORİNQ VASİTƏSİ KİMİ

## 3.1 FƏAL YAŞLANMA KONSEPSİYASI

Fəal yaşlanma məfhumu adətən sağlam və gümrah yaşlanma ifadələrinin əvəzedicisi kimi istifadə olunur. Müvafiq siyasətdə, araşdırmalarda və təcrübədə geniş istifadə olunmasına baxmayaraq, fəal yaşlanma məfhumunun şərhi ilə bağlı aydın olmayan məqamlar hələ də qalmaqdadır (Clarke və Warren, 2007; Ranzijn, 2010). Bunun səbəbi fəal yaşlanmanın hansı formasının arzuedilən olması ilə bağlı hələ də ortaq qənaətə gəlinməməsidir, cünki əksər hallarda bu məfhum sağlam və məhsuldar yaşlanma mənasında istifadə olunur. (Ranzijn, 2010). Rowe və Kahnın (1998) "Uğurlu Yaşlanma" yanaşması isə əlilliyin olmaması və yaşlı insanların yüksək dərəcədə fərdi və sosial fəallıqlarına böyük əhəmiyyət verirdi.

ÜST-ün fəal yaşlanma konsepsiyası davranış, şəxsi amillər, fiziki və sosial mühit, səhiyyə və sosial xidmətlər kimi fəal yaşlanmanın çoxölçülü aspektlərini və bunların iqtisadi determinantlarını ehtiva edir. Fəal yaşlanmanin psixoloji amillərə əsaslanan digər aspekti Fernàndez-Ballesteros və onun həmkarları tərəfindən 2013-cü ildə təklif olunub. Onlar Rowe və Kahnın 1987-ci ildə fəal yaşlanmanı müəyyən edən ilk materialı ilə həmfikir olduqlarını bildiriblər. Burada fəal yaşlanma xəstəlik və əlillik ehtimalının az olması, yüksək kognitiv bacarıq və fiziki fəallıq, müsbət əhval-ruhiyyə və stresə davamlılıq, gündəlik həyatını idarəetmə və məşğuletmə bacarığı kimi yanaşmalar çərçivəsində izah olunur. FYİ, ÜST tərəfindən müəyyən edilmiş fəal yaşlanma konsepsiyasına əsaslanır.

ÜST-ün fəal yaşlanma konsepsiyası (Haşiyə 1) üç prinsipə əsaslanır: iştirakçılıq, sağlamlıq və təhülkəsizlik. ÜST-ə görə (2002) fəal yaşlanmanın əsas aspektləri bunlardır: müstəqil qərarvermə, müstəqil yaşama, həyat keyfiyyəti və sağlam ömür uzunluğu.

- **Müstəqil qərarvermə** gündəlik problemlərin öhdəsindən gəlmək və onları idarə etmək, həmçinin necə yaşamaq barədə şəxsi qərarlar qəbul etmək bacarığıdır.
- **Müstəqil yaşama** başqalarının kömək və dəstəyinə ehtiyac olmadan cəmiyyətdə müstəqil yaşamaq üçün funksional qabiliyyətdir.
- **Həyat keyfiyyəti** "... fərdin yaşadığı mədəniyyət və dəyərlər sistemi kontekstində və özünün hədəfləri, gözləntiləri, standartları və qayğıları ilə əlaqədar olaraq həyatdakı mövqeyini qavramasıdır. Bu, şəxsin fiziki sağlamlığını, psixoloji vəziyyətini, müstəqillik səviyyəsini, sosial münasibətlərini, şəxsi inanclarını və ətraf mühitinin xarakterik xüsusiyyətlərinə münasibətini kompleks şəkildə özündə birləşdirən geniş əhatəli bir məfhumdur" (ÜST, 1994).
- **Gözlənilən sağlam ömür uzunluğu** "əlilliyi olmayan ömür müddəti" kimi şərh oluna bilər. Demək olar ki, bütün ölkələrdə yaşlı insanların ömür uzunluğu artır və sağlamlığın pozulması əsasən yaşlılıq dövründə baş verir. Buna görə də insanların əlilliyı olmadan nə qədər yaşaya bilməsini ölçmək çox vacibdir.

## 3.2 FƏAL YAŞLANMA İNDEKSİ (FYİ) NƏDİR?

FYİ yaşlı insanların cəmiyyətinə, icmasına və ailəsinə töhfələrini ölçmək üçün kompleks indeksdir. Buraya eyni zamanda insanların fəal yaşlanma potensialı və fəal yaşlanma üçün əlverişli mühit kimi amillər də daxildir. Bu, yaşlı insanların həyat keyfiyyəti və rifahı üçün zəmin kimi qiymətləndirilə bilər (UNECE/EC, 2015). FYİ Yaşlanma üzrə İkinci Ümumdünya Assambleyasında təqdim olunan ÜST-ün fəal yaşlanma konsepsiyasına (ÜST, 2002) əsaslanır (Haşiyə 1).

Bu Hesabatda diqqət 2012-ci il Avropa Fəal Yaşlanma və Nəsillərarası Həmrəylik İli ərzində FYİ layihəsi kontekstində müəyyən olunan fəal yaşlanmanın çoxölçülü konsepsiyasına yönəlir:

> *"... insanların yaşlandıqca sağlam, müstəqil və təhlükəsiz həyat sürə bildikləri və beləliklə, rəsmi əmək bazarına qatılmağa davam etdikləri, eləcə də digər ödənişsiz məhsuldar fəaliyyətlər ilə məşğul olduqları (məsələn, könüllü fəaliyyət və ailə üzvlərinə qulluq) vəziyyət." (Zaidi və digərləri, 2013, s.6).*

### Haşiyə 1: **ÜST-ün fəal yaşlanma tərifi**

Fəal yaşlanma ilə bağlı ən çox qəbul edilən tərif ÜST tərəfindən veriləndir:

> *'Fəal yaşlanma insanların yaşlandıqca həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədilə sağlamlıq, təhlükəsizlik və iştirakçılıq üçün imkanları optimallaşdırması prosesidir' (ÜST, 2002: 12)*

Bu çərçivə üç sahədə müvafiq siyasətin həyata keçirilməsini nəzərdə tutur:

- **'Sağlamlıq',** buraya fiziki sağlamlıq, eləcə də psixoloji və sosial rifah daxildir.
- **'İştirak'** işçi qüvvəsinə əlavə olaraq yaşlıların sosial, iqtisadi, mədəni, mənəvi və vətəndaş işlərində fəaliyyətlərini nəzərdə tutur.
- **'Təhlükəsizlik'** yaşlı insanların təhlükəsiz və güvənli fiziki və sosial mühitə çıxışı, eləcə də gəlir təminatı ilə əlaqədardır.

Beləliklə, bu tərifə əsasən, fəal yaşlanma ilə bağlı ictimai diskurs sözügedən insanlar, eləcə də onların yaşadıqları cəmiyyətlər üçün məhsuldar olan əmək bazarına cəlb olunma və ödənişsiz fəaliyyətlərdə iştirak imkanlarını genişləndirməyə yönəlib (Sidorenko və Zaidi, 2013). Həmçinin sağlamlığın qorunması ilə bağlı tədbirlər də vurğulana bilər və bunlar yalnız fiziki sağlamlığı deyil, eləcə də psixoloji rifah və sosial ünsiyyəti əhatə edir.

*Mənbə: "Avropada Fəal və Sağlam Yaşlanmanın Ölçülməsi" Zaidi və digərləri, (2017), səh.141.*

Bu tərifə görə, Aİ üçün FYİ-də olduğu kimi, fəal yaşlanma dörd sahə üzrə tətbiq edilir (Qrafik 5). Azərbaycan üçün tərtib olunan FYİ-də fəal yaşlanma uzun müddət əmək bazarında qalmaq, icma və ailə işlərində iştirak etməklə cəmiyyətə töhfə vermək (könüllü fəaliyyət, bilik və bacarıqların gənclərə ötürülməsi, yaşlılara/uşaqlara qulluq), müstəqil yaşamaq və fəal yaşlanma üçün fərdi potensialı inkişaf etdirmək ilə əlaqəlidir.

FYİ məşğulluq, könüllü xidmətlər, uşaq və yaşlılara qulluq və siyasi həyatda iştirak kimi fəaliyyətləri kollektiv şəkildə ölçür. Bura eyni zamanda müstəqil yaşamaq, maliyyə təhlükəsizliyi və həyat boyu fasiləsiz təhsil kimi müxtəlif aspektlər də daxildir. FYİ çərçivəsinin digər aspekti insan potensialının və sosial mühitin şərait yaradan amil kimi nəzərə alınmasını əhatə etməsidir. Bu, həmçinin Yaşlanma üzrə Beynəlxalq Madrid Fəaliyyət Proqramı (MIPAA) ilə əlaqəlidir və bundan başqa, FYİ-də istifadə olunan metodologiya BMT-nin İnkişaf Proqramının İnsan İnkişafı İndeksi (İİİ) ilə oxşardır (Parry və digərləri, 2018; Zaidi və digərləri, 2018).

FYİ-nin dəyəri ondan ibarətdir ki, o, şərti olaraq yalnız bir ölçüdə fərdi indikatorlara, yəni məşğulluq və könüllülük fəaliyyətinə əsaslanan fəal yaşlanmanın təhlil çərçivəsini genişləndirir. FYİ hər bir ölkənin və regionun kontekst və şəraitindən asılı olaraq həm müvafiq siyasəti müəyyən edən dairələrin ehtiyaclarının qarşılanması, həm də məlumatların hesablanması və əlçatanlığı baxımından çevik bir alət olaraq hazırlanıb.

QRAFİK 5: **UNECE/EC FƏAL YAŞLANMA İNDEKSİNİN (FYİ) SAHƏ VƏ İNDİKATORLARI**

ÜMUMİ İNDEKS

## Fəal Yaşlanma İndeksi

Fəal Yaşlanma İndeksi (FYİ) bütün ölkələrdə yaşlı insanların istifadə edilməyən fəal və sağlam yaşlanma potensialını ölçmək üçün bir vasitədir. FYİ yaşlı insanların nə dərəcədə müstəqil həyat sürdüyünü, ödənişli əmək fəaliyyətində və sosial fəaliyyətlərdə nə dərəcədə iştirak etdiyini, eyni zamanda onların fəal şəkildə yaşlanma potensialını ölçür.

| | Məşğulluq | Cəmiyyətdə iştirakçılıq | Müstəqil, sağlam və təhlükəsiz həyat | Fəal yaşlanma potensialı və fəal yaşlanma üçün əlverişli mühit |
|---|---|---|---|---|
| İNDİKATORLAR | Məşğulluq səviyyəsi 55-59 yaş | Könüllü fəaliyyətlər | Bədən tərbiyəsi | 55 yaşında qalan ömür uzunluğu |
| | Məşğulluq səviyyəsi 60-64 yaş | Uşaqlara və nəvələrə qayğı | Səhiyyə xidmətlərinə çıxış | 55 yaşında qalan ömür uzunluğunda gözlənilən sağlam illərin payı |
| | Məşğulluq səviyyəsi 65-69 yaş | Yaşlılara qulluq | Müstəqil yaşamaq | Psixoloji rifah |
| | Məşğulluq səviyyəsi 70-74 yaş | Siyasi iştirakçılıq | Maliyyə təhlükəsizliyi (3 indikator) | İnformasiya və Kommunikasiya Texnologiyalarından (İKT) istifadə |
| | | | Fiziki təhlükəsizlik | Sosial ünsiyyət |
| | | | Həyatı boyu fasiləsiz təhsil | Təhsil dərəcəsi |

*Mənbə: UNECE/EC (2015), səh.13.*

2012-ci ildə BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE) və Avropa Komissiyasının (AK) Məşğulluq, Sosial Məsələlər və Genişlənmə Baş Direktorluğunun (DE EMPL) birgə idarəolunan FYİ layihəsi çərçivəsində fəal yaşlanmanın dörd sahəsinin (əmək bazarında iştirak, cəmiyyətdə iştirakçılıq, müstəqil, sağlam və təhlükəsiz həyat sürmək, fəal yaşlanma üçün əlverişli mühit) qiymətləndirilməsi üçün çoxölçülü FYİ aləti (Qrafik 5) hazırlandı (Zaidi və digərləri, 2013). Bu sahələrin hər biri həyatın daha yaşlı dövründə və uğurlu yaşlanma prosesində həyat keyfiyyətinin mühüm aspektlərini ehtiva edir.

1. **Məşğulluq** (dörd indikator) gəlir gətirən iqtisadi fəaliyyətlərə diqqət yetirir.
2. **Cəmiyyətdə iştirakçılıq** (dörd indikator) ödənişsiz, lakin cəmiyyətə dəyərli töhfə verən məhsuldar sosial fəaliyyətlərə diqqət yetirir.
3. **Müstəqil, sağlam və təhlükəsiz həyat sürmək imkanı** (səkkiz indikator) fiziki fəaliyyətlər və təhlükəsizlik, müstəqil yaşama, maliyyə təhlükəsizliyi və həyat boyu fasiləsiz təhsilə diqqət yetirir.
4. **Fəal yaşlanma potensialı və fəal yaşlanma üçün əlverişli mühit** (altı indikator) digər üç sahədən fərqli olaraq fəal yaşlanma potensialını və yaşlanma üçün uyğun mühiti ölçür.

FYİ indikatorlarının əksəriyyəti milli səviyyədə Avropa ölkələrində mövcuddur. Mahiyyət etibarilə FYİ-nin analitik çərçivəsi hər bir indikator üçün statisik məlumatların mövcud olduğu halda yerli hökumətlər, regionlar və əyalətlərdə də hesablana bilər.



## 3.3 TƏDQİQAT NÜMUNƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Cədvəl 3-də 2002 nəfər 55 və daha yuxarı yaşda yaşlı şəxsin nümunə (seçmə) sorğusunun xüsusiyyətləri təqdim edilir (Əlavə A1: sorğu anketi). Sorğu iştirakçılarının ortalama yaş göstəricisi 64.5 olub. Onların yarıdan çoxu (53.9%) qadın, 74%-i ailəli, 90%-dən çoxu ümumi orta və ya ondan yüksək təhsili olanlardır. İştirakçılar təsadüfi qaydada doqquz müxtəlif regiondan seçilib.

Azərbaycan üçün bütün indikatorlar 2020-ci ilin oktyabr ayında keçirilmiş ilk FYİ sorğusundan götürülüb. Dördüncü sahənin "55 yaşında 50 illik qalan ömür uzunluğu"[3] və "55 yaşında qalan ömür uzunluğunda gözlənilən sağlam illərin payı" kimi bəzi indikatorlar ÜST-ün məlumat bazasından əldə edilib. "Nisbi orta gəlir" və "Yoxsulluq riskinin olmaması" kimi maddi rifah indikatorları Dövlət Statistika Komitəsi (DSK) tərəfindən təmin edilib.

Azərbaycan üçün FYİ-nin hesablanmasında hər bir indikator üçün UNECE/EC-nin Fəal Yaşlanma İndeksində istifadə olunan eyni birbaşa çəki tətbiq edilib.

3 Bu FYİ göstəricisi, 105 yaş ömür uzunluğu hədəfində nail olunmuş ömür uzunluğu nisbətini hesablamaq üçün 55 yaşında qalan ömür uzunluğunun 50 ilə bölünməsi yolu ilə hesablanır.

CƏDVƏL 3: **TƏDQİQAT NÜMUNƏSİNİN XÜSUSİYYƏTLƏRİ (N=2002)**

| | n | % |
|---|---|---|
| **Cins (qadın)** | 1,078 | 53.9 |
| **Təhsil** | | |
| Təhsilsiz | 10 | 0.5 |
| İbtidai | 18 | 0.9 |
| Ümumi orta təhsil | 134 | 6.7 |
| Tam orta təhsil | 839 | 41.9 |
| Orta ixtisas təhsili | 518 | 25.9 |
| Ali təhsil (universitet) | 483 | 24.1 |
| **Ailə vəziyyəti** | | |
| Subay | 49 | 2.4 |
| Evli | 1,482 | 74 |
| Dul | 406 | 20.3 |
| Boşanmış | 55 | 2.7 |
| Evli, amma ayrı yaşayır | 5 | 0.3 |
| Birgə yaşayır (partnyor ilə/nikahsız) | 5 | 0.3 |
| **Region** | | |
| Bakı | 506 | 25.3 |
| Abşeron | 127 | 6.3 |
| Gəncə-Qazax | 283 | 14.1 |
| Şəki-Zaqatala | 136 | 6.8 |
| Lənkəran | 207 | 10.3 |
| Quba-Xaçmaz | 122 | 6.1 |
| Aran | 515 | 25.7 |
| Yuxarı Qarabağ | 34 | 1.7 |
| Dağlıq Şirvan | 72 | 3.6 |
| Son yeddi gündə ödənişli əmək fəaliyyəti (bəli) | 497 | 24.8 |

**Yaş**
Ortalama ± SS **64.5 ± 8**
Min - Max **55 - 75**

# 4 AZƏRBAYCAN ÜÇÜN FYİ-NİN ƏSAS NƏTİCƏLƏRİ

İstifadə olunan tədqiqat metodları və təriflər hər ölkədə fərqləndiyi üçün FYİ-nin tətbiq olunma uyğunluğu diqqətlə nəzərdən keçirilməlidir. Bu bölmədə FYİ təhlilinin əsas nəticələri 28 Aİ ölkəsinin (UNECE/EC, 2015-dən götürülmüş), Çinin (Zaidi və digərləri, 2019-dan götürülmüş) və Cənubi Koreyanın (UM və digərləri, 2019-dan götürülmüş) ortalama göstəriciləri ilə müqayisəli şəkildə təqdim edilir. Azərbaycan üçün FYİ-nin hesablanmasında hər bir indikator və sahə üzrə Aİ-nin FYİ-də istifadə edilən eyni birbaşa çəki tətbiq olunur. Haşiyə 2-də FYİ nəticələrinin necə şərh olunması izah edilir və istifadə olunan (weighting) metodları barədə əlavə məlumatı Zaidi və digərlərinin işində (2013) əldə etmək olar.

Azərbaycanın ümumi FYİ nəticəsinə təsir etməsi nöqteyi-nəzərindən (Qrafik 6) "Müstəqil, sağlam və təhlükəsiz həyat sürmək imkanı" və "Məşğulluq" adlı üçüncü və birinci sahələr müvafiq olaraq 18% və 20% ilə çox aşağı göstəriciyə malikdir. Ən çox töhfə verən sahələr isə 34% və 28% nəticə ilə müvafiq olaraq dördüncü ("Fəal və sağlam yaşlanma potensialı və fəal və sağlam yaşlanma üçün əlverişli mühit") və ikinci sahədir ("Cəmiyyətdə iştirakçılıq"). 28 Aİ ölkəsi ilə müqayisədə Azərbaycanın "Məşğulluq" sahəsi üzrə göstəricisi çox aşağı olsa da, "Fəal və sağlam yaşlanma potensialı və fəal və sağlam yaşlanma üçün əlverişli mühit" sahəsinin ümumi nəticəyə verdiyi töhfə çox yüksəkdir.

## Haşiyə 2: **Fəal Yaşlanma İndeksini necə şərh etməli?**

FYİ hesablamaları yaşlı insanların icmasına və cəmiyyətinə verdiyi töhfəni və onların iqtisadi proseslərdə və cəmiyyətdə iştirakını, eləcə də müstəqil yaşamaları üçün imkanların və əlverişli mühitin yaradılması dərəcəsini ölçür. İndeks qiymətlərin 0-100 arasında dəyişə biləcəyi şəkildə tərtib edilib. Məqsəd ən az inkişaf etmiş ölkədən ən çox inkişaf etmiş olana qədər bütün mümkün icmaların bu intervala uyğun gəlməsini təmin etməkdir. Bu, eyni zamanda faktiki FYİ-nin intervalın minimum və ya maksimum dəyərlərinə heç vaxt yaxınlaşmayacağını nəzərdə tutur. Hədəfin təyin edilməsi üçün nəzəri olaraq müəyyən olunan maksimum 100-ün praktiki dəyəri çox azdır, buna görə də məqbul zaman çərçivəsində hansı potensialların səfərbər oluna biləcəyini göstərən digər daha real meyarlara ehtiyac var.
Hər bir ölkə, hətta hazırda ən yüksək FYİ nəticəsinə malik olanlar belə daha da inkişaf edə bilər. Bu, ölkələr üzrə hər bir göstərici üzrə və müvafiq müddət ərzində kişilər və ya qadınlar üçün ən yaxşı müşahidə olunan dəyərləri özündə əks etdirən hər hansı xəyali bir ölkə üçün hesablanmış FYİ dəyəri ilə nümayiş etdirilə bilər. Müqayisəli təhlil üçün digər imkanlar başqa bir analoji ölkəni əsas tutaraq bu iki ölkənin müvafiq göstəricilərini müqayisə etmək və ya bir ölkə daxilində gender fərqinə baxmaqdır.
Hər bir indikator üzrə müşahidə olunan ən yaxşı nəticəni əldə etmiş xəyali ölkənin FYİ dəyəri uzunmüddətli perspektivdə FYİ-nin real hədəfidir. Bu və ya digər FYİ sahəsinə xas nəticələr və müşahidə olunan maksimum indikator dəyərlərinin istifadə olunması ilə hesablanan ümumi FYİ bu Hesabatda "FYİ hədəfi " olaraq qeyd edilir. Ümumi FYİ üçün təxmin edilən hədəf 56.4-dir.

*Mənbə: UNECE/EC (2015) səh.6*

QRAFİK 6: **AZƏRBAYCANIN ÜMUMİ VƏ 28 Aİ ÖLKƏSİNİN ORTALAMA FYİ DƏYƏRLƏRİNƏ TÖHFƏLƏRİNİN MÜQAYİSƏSİ**




Ümumi FYİ-nə əsasən (Qrafik 7), Azərbaycanın indeks dəyəri (32.6) 28 Aİ ölkəsi üçün FYİ-nin ortalama dəyərindən (33.9) bir qədər aşağıdır. 28 Aİ ölkəsi, Çin və Cənubi Koreya ilə ümumi sıralamaya daxil edildikdə, Azərbaycan müqayisə edilən 31 ölkə arasında 17-ci və 18-ci sırada yer alan Belçika və Portuqaliyadan dərhal sonra, aşağı-orta ölkələr qrupunda 19-cu sırada qərarlaşır (bax: Əlavə A2).

Azərbaycanın FYİ-nin cins bölgüsü sosial tərəqqiyə nail olmaq üçün vacib amil hesab oluna biləcəyi baxımından bir sıra maraqlı fikirlər təqdim edir (Bennett və Zaidi, 2016). Azərbaycanda kişilər və qadınlar üçün ümumi FYİ dəyərləri müvafiq olaraq 35.5 və 30.2-dir. Bunun əsasında Azərbaycan kişilər kateqoriyasında 18-ci sırada olan Maltadan sonra 19-cu yerdə qərarlaşıb (20-cı yerdə isə Xorvatiyadır) (bax: Əlavə A3). Qadınlar kateqoriyasında isə Azərbaycan 21-ci və 23-cü mövqelərdə olan Kipr və Xorvatiya ilə yanaşı 22-ci yerdə qərarlaşıb (bax: Əlavə A4). Ümumi FYİ daxilində məşğulluq sahəsinin 35% açıq çəkisi olan bu cins fərqi, əsasən məşğulluq sahəsində kişilərin göstəricisinin (ümumi məşğulluq indeksi 22.7) qadınlara nisbətən daha yüksək olmasından (ümumi məşğulluq indeksi 15.2) qaynaqlanır. Belə bir gender fərqinə xüsusilə Cənubi Avropa ölkələri olmaqla bəzi digər Aİ ölkələrində, eləcə də ənənəvi olaraq patriarxal cəmiyyət quruluşuna malik Çin və Cənubi Koreyada da rast gəlmək olur (Zaidi və digərləri, 2017; Um və digərləri, 2019).

QRAFİK 7: **28 Aİ ÖLKƏSİ, ÇİN VƏ CƏNUBİ KOREYA İLƏ MÜQAYİSƏDƏ AZƏRBAYCANIN FƏAL YAŞLANMA İNDEKSİ**









CƏDVƏL 4: **Aİ ÖLKƏLƏRİ, ÇİN VƏ CƏNUBİ KOREYA İLƏ MÜQAYİSƏLİ ŞƏKİLDƏ AZƏRBAYCAN ÜÇÜN ÜMUMİ VƏ SAHƏLƏR ÜZRƏ FYİ NƏTİCƏSİ**

| | | Azərbaycan | | | Aİ - ortalama | | | Cənubi Koreya | | | Çin | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın |
| FYİ | Ümumi indeks | 32.6 | 35.5 | 30.2 | 33.9 | 35.8 | 32.1 | 35.3 | 40.8 | 30.7 | 37.3 | 40.9 | 33.8 |
| | Sıra | 19 | 19 | 22 | | | | 11 | 6 | 19 | 9 | 5 | 9 |
| | | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın |
| 1-ci SAHƏ | 1.1 Məşğulluq faizi 55-59 yaş | 33.5 | 40.5 | 27.3 | 62.2 | 69.3 | 55.3 | 64.7 | 86.5 | 48.0 | 56.7 | 73.0 | 40.8 |
| | 1.2 Məşğulluq faizi 60-64 yaş | 28.2 | 31.7 | 25.2 | 31.6 | 38.6 | 25.1 | 51.9 | 71.2 | 44.7 | 44.7 | 53.3 | 36.9 |
| | 1.3 Məşğulluq faizi 65-69 yaş | 10.7 | 14.6 | 7.5 | 11.6 | 15.1 | 8.5 | 38.6 | 50.7 | 27.3 | 35.4 | 40.5 | 30.4 |
| | 1.4 Məşğulluq faizi 70-74 yaş | 2.2 | 3.9 | 0.9 | 6.1 | 8.2 | 4.3 | 25.5 | 36.4 | 17.4 | 26.0 | 34.2 | 18.8 |
| | İndeks | 18.6 | 22.7 | 15.2 | 27.9 | 32.8 | 23.3 | 45.2 | 61.2 | 32.2 | 40.7 | 50.2 | 31.7 |
| | Sıra | 31 | 30 | 28 | | | | 1 | 1 | 4 | 3 | 2 | 5 |
| | | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın |
| 2-ci SAHƏ | 2.1 Könüllü fəaliyyət | 2.4 | 3.8 | 1.1 | 8.9 | 9.6 | 8.4 | 8.1 | 6.2 | 10.5 | 9.6 | 9.0 | 10.5 |
| | 2.2 Uşaqlara qulluq | 59.3 | 59.4 | 59.3 | 32.5 | 30.6 | 33.9 | 5.0 | 1.8 | 7.1 | 32.9 | 30.3 | 35.4 |
| | 2.3 Yaşlılara qulluq | 22.1 | 22.8 | 21.5 | 12.9 | 11.8 | 13.7 | 2.2 | 2.4 | 2.1 | 13.4 | 15.7 | 11.2 |
| | 2.4 Siyasi həyatda iştirak | 21.3 | 29.7 | 14.1 | 17.2 | 20.5 | 14.6 | 0.3 | 0.4 | 0.1 | - | - | - |
| | İndeks | 26.3 | 28.6 | 24.4 | 17.7 | 17.7 | 17.6 | 4.0 | 2.8 | 5.1 | 18.3 | 18.2 | 18.5 |
| | Sıra | 1 | 1 | 2 | | | | 30 | 29 | 28 | 13 | 14 | 10 |

| | | Azərbaycan | | | Aİ - ortalama | | | Cənubi Koreya | | | Çin | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın |
| 3-cü SAHƏ | 3.1 Fiziki tərbiyə | 31.7 | 36.8 | 27.4 | 15.6 | 16.0 | 15.2 | 32.1 | 37.0 | 28.4 | 46.8 | 41.5 | 53.4 |
| | 3.2 Səhiyyə və stomatoloji xidmətlərdən istifadə imkanı | 41.7 | 49.1 | 35.3 | 88.2 | 88.6 | 87.8 | 94.1 | 94.7 | 93.6 | 68.5 | 72.1 | 64.7 |
| | 3.3 Müstəqil yaşamaq | 52.6 | 52.9 | 52.0 | 84.2 | 84.2 | 84.2 | 70.4 | 78.3 | 65.6 | 45.4 | 52.4 | 38.6 |
| | 3.4 Nisbi orta gəlir | 92.6 | 92.6 | 92.6 | 86.3 | 89.8 | 83.7 | 47.4 | 49.4 | 44.9 | 87.1 | 87.8 | 85.9 |
| | 3.5 Yoxsulluq riski yoxdur | 95.4 | 95.4 | 95.4 | 93.0 | 94.6 | 92.0 | 52.6 | 62.2 | 30.6 | 71.1 | 71.5 | 70.6 |
| | 3.6 Ciddi maddi məhdudiyyət yoxdur | 78.0 | 83.2 | 74.0 | 90.0 | 91.7 | 88.9 | 62.8 | 73.9 | 47.6 | 71.1 | 74.1 | 68.4 |
| | 3.7 Fiziki təhlükəsizlik | 89.2 | 93.3 | 85.7 | 69.3 | 78.0 | 61.8 | 71.2 | 81.4 | 64.5 | 91.9 | 92.5 | 91.4 |
| | 3.8 Həyatı boyu fasiləsiz təhsil | 10.9 | 11.2 | 10.8 | 4.5 | 3.4 | 5.5 | 5.5 | 5.7 | 5.4 | 0.5 | 0.5 | 0.5 |
| | İndeks | 58.6 | 61.6 | 56.1 | 70.6 | 72.1 | 69.3 | 60.1 | 65.6 | 54.0 | 64.9 | 67.4 | 62.3 |
| | Sıra | 31 | 30 | 30 | | | | 28 | 27 | 31 | 29 | 29 | 28 |

| | | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın | Ümumi | Kişi | Qadın |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4-cü SAHƏ | 4.1 Qalan ömür uzunluğu nailiyyəti (RLE) [4] | 42.1 | 38.2 | 45.5 | 53.8 | 48.8 | 58.1 | 53.3 | 46.7 | 60.0 | 42.2 | 40.0 | 46.7 |
| | 4.2 Qalan ömür uzunluğunda gözlənilən sağlam illərinin payı | 77.2 | 77.2 | 77.1 | 53.2 | 57.1 | 50.1 | 80.8 | 82.4 | 78.1 | 82.1 | 83.3 | 78.1 |
| | 4.3 Psixoloji rifah | 55.6 | 65.7 | 46.9 | 64.6 | 68.2 | 61.6 | 50.7 | 51.9 | 49.8 | 75.1 | 80.5 | 68.0 |
| | 4.4 İKT-dən istifadə | 38.1 | 38.7 | 37.5 | 40.8 | 44.8 | 37.1 | 64.3 | 69.2 | 61.7 | 3.9 | 3.8 | 4.0 |
| | 4.5 Sosial ünsiyyət | 39.5 | 47.6 | 32.5 | 49.0 | 48.0 | 50.0 | 59.5 | 54.9 | 62.9 | 43.3 | 43.8 | 42.8 |
| | 4.6 Təhsil | 91.9 | 97.4 | 87.2 | 59.7 | 64.9 | 55.1 | 43.0 | 58.1 | 31.1 | 21.6 | 25.5 | 17.9 |
| | İndeks | 55.2 | 57.1 | 53.6 | 54.4 | 54.7 | 54.2 | 60.2 | 59.3 | 61.1 | 53.2 | 54.0 | 52.3 |
| | Sıra | 15 | 13 | 16 | | | | 8 | 8 | 5 | 17 | 18 | 17 |

4 Qalan ömür uzunluğu nailiyyəti

## 4.1 MƏŞĞULLUQ

Yaşlı insanların əmək bazarına cəlb olunmasını ölçən Azərbaycanın "Məşğulluq" sahəsində həm ümumi, həm də kişilər üzrə nəticələri 28 Aİ ölkəsi ilə müqayisədə aşağıdır (Cədvəl 4). Gözlənildiyi kimi, məşğulluq səviyyəsi yaş artdıqca 55-59 yaş qrupu üçün  33.5%-dən ən yaşlı qrup üçün (70-74 yaş) 2,2%-ə düşür. Yaş qrupları üzrə eyni nümunələrə Aİ-nin ortalama nəticələrində də rast gəlinir. Azərbaycanda 55-59 yaşda insanların məşğulluq səviyyəsi digər ölkələr ilə müqayisədə ən aşağıdır və buna görə də Azərbaycan 31-ci yerdədir (İsveç 82 göstəricisi ilə birinci yerdədir).

Məşğulluq sahəsindəki göstəricinin ən aşağı olması onu göstərir ki, Azərbaycanda yaşlı insanlar əmək bazarına minimal töhfə verirlər. İnsanlar yaşlandıqda səhhətlərində yaranan problemlər və ya iş imkanlarının məhdud olması səbəbindən işləmək iqtidarında olmur və bu da öz növbəsində yoxsulluq riskinin artmasına, yaşlı insanların maddi cəhətdən ailələrindən, eləcə də sosial müdafiə sistemindən asılı olmasına gətirib çıxarır. Buna görə də, hökumət və digər maraqlı tərəflər aztəminatlı və yaşlı insanlar üçün nəzərdə tutulan maliyyə dəstəyinin miqdarının artırılması və əhatə dairəsinin genişləndirilməsi ilə yanaşı yaşlı insanlar üçün münasib iş yerlərinin açılmasını təşviq etməli və bunu həyata keçirməlidirlər.

Məşğulluq sahəsindəki gender fərqləri yaşlı qadınların demək olar ki, bütün ölkələrdə (Estoniya istisna olmaqla) ödənişli fəaliyyətlərdə kişilərdən daha az iştirak edə bildiyini göstərir. Eyni hal Azərbaycanda da müşahidə edilib. Azərbaycanda qadınların məşğulluqda kifayət qədər təmsil olunmaması rəsmi qurumların qarşısında yaşlı qadınların karyera müddətini uzatmaq üçün məşğulluq imkanlarının yaradılmasına yönələn siyasətin formalaşdırılması yolu ilə müvafiq vəziyyəti yaxşılaşdırmaq vəzifəsini qoyur. Zaidi və digərlərinin hesabatında deyildiyi kimi (2013, s 25), "bir ölkədə kişilər üçün fəal yaşlanma mümkündürsə, həmin ölkədə bu, qadınlar üçün də mümkün olmalıdır".

## 4.2 CƏMİYYƏTDƏ İŞTİRAKÇILIQ

Yaşlı insanların cəmiyyətdə iştirakçılığını göstərən bu sahə dörd indikator vasitəsilə ölçülür. Ümumi olaraq Azərbaycanda yaşlı insanların sosial xidmətə aid iştirakçılıq səviyyəsi yüksəkdir və bu göstəriciyə görə Azərbaycan Aİ ölkələrini, Çini və Cənubi Koreyanı üstələyir.

Aİ ölkələrindəki həmyaşıdları ilə müqayisədə (8.9%) Azərbaycandakı yaşlılar könüllü fəaliyyətlə daha az məşğul olsalar da (2.4%), onların siyasi iştirakçılığı (21.3%) və uşaqlara, nəvələrə və digər yaşlılara qulluq (59.3) ilə bağlı faiz göstəriciləri Aİ ölkələrindəki bütün müvafiq göstəricilərdən daha yüksəkdir. Bunun bir neçə mümkün izahı var. Birincisi, Azərbaycan mədəniyyətində ailə olduqca vacib elementdir və bu, adətən ailə üzvləri arasında bağlılıq və ailə üzvlərinə qayğı ilə xarakterizə olunur. İkincisi, Azərbaycanda uşaq baxımı, eləcə də yaşlı insanlara uzunmüddətli qayğı xidmətlərinin[5] çatışmazlığı ola bilər, Avropada isə uşaq baxımı xidmətləri daha çox mövcud olduğu üçün yaşlılardan nəvələrinə dəstək göstərməsi və baxması daha az tələb olunur.

2010-cu ildə Belçika, İspaniya, Fransa, İsveç, Almaniya, Estoniya, Niderland, Sloveniya, İrlandiya, Danimarka, Birləşmiş Krallıq və İslandiya kimi Avropa ölkələrində uşaq baxımı xidmətlərinin əhatə dairəsi təxminən 90% idi; digər Avropa ölkələri isə 40%-80% arası göstəriciyə nail olur (Mills və digərləri, 2014).

5 Uzunmüddətli qulluq, qısa və ya uzun müddət ərzində bir insanın sağlamlıq və ya şəxsi qulluq ehtiyaclarını ödəmək üçün hazırlanmış müxtəlif xidmətləri əhatə edir. Bu xidmətlər insanların gündəlik işlərini təkbaşına həyata keçirə bilmədikləri zaman mümkün qədər müstəqil və təhlükəsiz yaşamalarına kömək edir.

Bu onu göstərir ki, Azərbaycanda rəsmi uşaq baxımı imkanlarının təkmilləşdirilməsi zəruridir və burada Hökumət daha çox dövlət məktəbəqədər təhsil müəssisələri inşa etməklə və özəl sektoru məktəbəqədər təhsil sahəsinin inkişafına töhfə verməyə təşviq etməklə bu məsələdə Aİ ölkələri təcrübəsindən yararlana bilər.

Azərbaycanda yaşlı insanların siyasi iştirakçılıq nisbəti (21.3%) ümumi Aİ ortalamasından (17.4%) yüksək olsa da, Aİ daxilində ayrı-ayrı ölkələr arasındakı fərqlər  müxtəlif və əhəmiyyətsizdir. Avropada bu sahədə ən yüksək göstəriciyə malik olan ölkə İsveçdir (48.4%). Sonrakı yerlərdə isə Danimarka, Niderland, Birləşmiş Krallıq, Finlandiya, Lüksemburq və Fransa gəlir.

Gender fəqrliliyinə gəlincə, uşaqlara/nəvələrə və yaşlılara qulluq ilə bağlı müvafiq olaraq ikinci və üçüncü indikatorlar üzrə Azərbaycanda o qədər də əhəmiyyətli bir fərq müşahidə olunmur. Yaşlı qadınlar ilə müqayisədə yaşlı kişilər daha çox könüllü (3.8%) və siyasi fəaliyyətlərdə (29.7%) iştirak edirlər. Qadınlarda isə bu göstəricilər müvafiq olaraq 1.1% və 14.1%-dir. Bu, Azərbaycanda yaşlı qadınların evdən kənarda müxtəlif fəaliyyətlərdə iştirakının bir qədər məhdud olduğunun göstəricisidir.

## 4.3 MÜSTƏQİL, SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT

İlk iki sahə ilə müqayisədə daha çox indikatora əsaslanan bu sahə yaşlı insanların müstəqil, sağlam və təhlükəsiz həyat sürmək imkanlarını ölçür. Birinci sahədə olduğu kimi, Azərbaycandakı yaşlı insanlar bu sahədə də ən alt sıralarda, daha dəqiq desək, 30-cu yerdə qərarlaşıb. İki Skandinaviya ölkəsi – Danimarka (1-ci) və İsveç (2-ci) bu sahə üzrə ən yaxşı göstəricilərə sahibdir.

Birinci indikator olan “fiziki tərbiyə” əhəmiyyətli bir ictimai səhiyyə və klinik məsələdir. Azərbaycanda yaşlı insanlar müntəzəm olaraq idman edir və bu indikatora görə üçüncü ən yüksək nəticə göstəriblər. Bununla belə, “qarşılanmamış tibbi xərclər” və “müstəqil yaşamaq”  bu sahənin digər indikatorları ilə müqayisədə nisbətən aşağı nəticə göstərir. Azərbaycandakı yaşlıların sadəcə təxminən 42%-i bütün tibbi müayinə və müalicə ehtiyaclarının qarşılandığını bildiriblər.

Müstəqil yaşamaq qərb mədəniyyətində fəal yaşlanmanın vacib indikatorlarından biri hesab edilir; 28 Aİ ölkəsində yaşlı insanların 84%-nin tək və ya sadəcə həyat yoldaşı ilə yaşadığı müəyyən edilib. Müqayisə etdikdə, Azərbaycanda bu indikator üzrə göstəricinin çox aşağı, cəmi 52.6% olduğu görünür. Bu aşağı faiz göstəricisi yaşayış tərzindəki mədəniyyət fərqlərinin təsiri altında formalaşa bilər. Bu cür fərqlər Çin, Cənubi Koreya və Yaponiyada FYİ ilə bağlı olmayan təhlillərdə də müşahidə olunub (Um və digərləri, 2019; Zaidi və digərləri, 2019). Beləcə, bu indikator Şərq və ya Asiya mədəniyyətlərində fəal yaşlanmanın müəyyən edilməsi üçün uyğun olmaya bilər. Bununla belə, son üç onillikdə ölkələrin çoxunda müşahidə olunan tendensiya uşaqlar ilə birlikdə yaşamamağı və ailə dəstəyindən asılılığı azaldaraq daha kiçik tərkibdən ibarət ailə şəklinə yönəlib.

”Maliyyə təhlükəsizliyi” ilə əlaqəli üç indikator müstəvisində müşahidə olunan Azərbaycanda yaşlıların maliyyə rifahı Aİ ölkələrinin ortalaması ilə müqayisədə  nisbətən yüksək göstərici təqdim edir: nisbi orta gəlir - 92.6%, yoxsulluq riskinin olmaması  - 95.4% və maddi məhdudiyyətin olmaması - 78%. Bu rəqəmlər əsas etibarilə digər yoxsulluq araşdırmalarının nəticələri ilə üst-üstə düşür (Studer, 2012) və ölkənin sosial müdafiə sisteminin mütləq yoxsulluğun 30.9%-dən 10.9%-ə düşməsinə müsbət təsirini əks etdirir. Bu müsbət tendensiya xüsusilə yaşa və əlilliyə görə müəyyən olunan təqaüdlər ilə əlaqədar özünü büruzə verir.

Gecələr tək gəzərkən özünü təhlükəsiz hiss edən yaşlı insanların faiz göstəricisi vasitəsilə ölçülən "fiziki təhlükəsizlik" indikatoru yenə də Aİ-nin ortalama göstəricisindən (69.3%) daha yüksəkdir (89.2%). "Həyatı boyu fasiləsiz təhsil" adlanan sonuncu indikator da 28 Aİ ölkəsində müşahidə edilən rəqəmdən (4.5%) daha yüksəkdir (10.9%).

Bu sahədəki digər indikatorlar Azərbaycanda yaşlı kişilər və qadınlar arasında yalnız cüzi fərq göstərsə də, "fiziki tərbiyə" indikatoru kişilərin (36.8%) qadınlara (27.4%) nisbətən daha çox fiziki fəaliyyətlə məşğul olduğunu nümayiş etdirir. "Qarşılanmamış tibbi xərclər" indikatorunda da yaşlı kişilər (49%) və qadınlar (27%) arasında əhəmiyyətli fərq nəzərə çarpır. Azərbaycanlı yaşlı qadınlar üzrə bu sahədə ən aşağı nəticə ölkənin səhiyyə xidmətlərinin, xüsusilə ilkin tibbi-sanitar xidmətlərin qadınları daha geniş şəkildə əhatə edə bilməsi üçün təkmilləşdirilməsinin zəruri olduğunu göstərir. Səhiyyə və xəstəliklərin profilaktikası ilə bağlı proqramların keyfiyyətinin və əlçatanlığının artırılması xroniki xəstəliklərin müalicəsi və həkim nəzarətində saxlanılmasına, eləcə də yaşlı insanlar üçün tibbi xidmətlərdəki çatışmazlıqların aradan qaldırılmasına kömək edə bilər.

## 4.4 FƏAL YAŞLANMA POTENSİALI VƏ FƏAL YAŞLANMAQ ÜÇÜN ƏLVERİŞLİ MÜHİT

Birinci və üçüncü sahələr ilə müqayisədə Azərbaycanın son sahədəki nəticəsi daha qənaətbəxşdir (55.2%, 15-ci yer). Bu sahənin ilk iki indikatoru 60 yaşında qalan ömür uzunluğu ilə əlaqəlidir. ÜST-ün məlumatları əsasında (ÜST, 2016) (3.3-cü Bölmədəki izaha baxın) bu indikator üzrə nəticə 42.1% olub. Qeyd edək ki, əksər Avropa ölkəsində müşahidə olunduğu kimi, Azərbaycanda da yaşlı kişilər qadınlardan daha aşağı nəticə göstərir (müvafiq olaraq 38.2% və 45.5%). Azərbaycanda qadınlar kişilərdən çox yaşasa da, 60 yaşında "qalan ömür uzunluğunda gözlənilən sağlam illərinin payı" indikatorunda hər iki cins üçün göstəricilər demək olar ki, eynidir (kişilər üçün 77.2% və qadınlar üçün 77.1%).

Psixoloji rifah ilə əlaqəli Azərbaycandakı yaşlı insanların faiz göstəricisi (55.6%) 28 Aİ ölkəsinin ortalama göstəricisindən (63.9%) bir qədər aşağıdır. Bu indikator üzrə, həmçinin Azərbaycandakı qadınların göstəricisi (46.9%) Avropadakı qadınların ortalama göstəricisindən (60.9%) aşağıdır. Kişilərin göstəriciləri isə Azərbaycan üçün 65.7%, Avropa üçün isə 67.6%-dir. Bu nəticələr Azərbaycanda yaşlı insanlar, xüsusilə yaşlı qadınlar üçün psixiatrik yardımın keyfiyyətinin və əlçatanlığının artırılmasına ehtiyac olduğu qənaətinə gəlməyə əsas verir.

Azərbaycandakı yaşlı insanlar Avropadakı həmyaşıdları qədər İKT-dən istifadə etmir (müvafiq olaraq 38.1% və 40.8%). Bu, İKT-nin əlçatanlığı ilə bağlı ola bilər, çünki digər ölkələr ilə müqayisədə Aİ ölkələrində sosial və iqtisadi tərəqqi səviyyəsi daha yüksəkdir və burada daha yaxşı informasiya texnologiyaları infrastrukturu mövcuddur (Mansfield, 2018).

"Sosial ünsiyyət" indikatoru yaşlı insanların son bir ayda dostları, qohumları və ailə üzvləri ilə hansı tezlikdə görüşməsi əsasında ölçülür. Azərbaycanda yaşlı insanların təxminən 40%-i başqa insanlarla mütəmadi təmasda olduğunu bildirib. Yaşlı kişilərin nəticələri yaşlı qadınlar ilə müqayisədə daha yüksəkdir ki, bu da bir çox Avropa ölkəsindəki nəticələrin əksinədir.

"Təhsil nailiyyəti" adlanan son indikator Azərbaycandakı yaşlı insanların ən yüksək təhsil nailiyyətinin olduğunu göstərir. Avropadakı yaşlı insanların ortalama nəticəsi (60.80%) ilə müqayisədə, onların təxminən 92%-nin təhsil səviyyəsi ümumi orta və daha yüksəkdir.

# 5 MÜZAKİRƏ VƏ NƏTİCƏLƏRİN ÜMUMİLƏŞDİRİLMƏSİ

Fəal yaşlanmanın təşviq edilməsi bütün maraqlı tərəflər – dövlət, yaşlı insanlar və cavan nəsil üçün faydalı ola bilər. Dövlət bundan faydalanacaq, çünki yaşlı insanlar uzun müddət pensiya sisteminə töhfə verə biləcək və beləcə, təqaüd və səhiyyə xidmətləri ilə bağlı daha az dəstəyə ehtiyac hiss edəcək; yaşlı insanlar cəmiyyətə daha asan inteqrasiya olacağı və eyni zamanda daha yüksək rifaha malik olacağı üçün faydalanacaq; cavan nəsil isə yaşlı insanların təcrübələrini öyrənmək üçün daha çox imkanlar əldə etməklə və yaşlanan baba və nənələri ilə daha aktiv şəkildə qarşılıqlı əlaqədə olmaqla bəhrələnə biləcək. Bu faydalar fonunda fəal yaşlanmanın təşviq edilməsi sayəsində yaşlı insanların dövlətin sosial rifah sistemindən asılılığı azalır.

Qərbi Avropa və Skandinaviya ölkələri ilə müqayisədə Azərbaycanda bu vaxta kimi fəal yaşlanma mövzusu olduqca az araşdırılıb. Azərbaycanda FYİ üçün aparılan sorğu çərçivəsində ölkənin doqquz regionundan böyük bir seçmə nümunəsi təhlil edilib və buna görə də bu nümunə ölkə üzrə reprezentativ hesab edilə bilər. Sorğuda eyni vaxtda müxtəlif məkanlarda məlumatların toplanılmasını təmin edən çarpaz sxemdən istifadə olunub. Bəzi indikatorlar müxtəlif beynəlxalq məlumat bazalarından əldə edilib və 29 ölkə (28 Aİ ölkəsi və Azərbaycan) arasında müqayisələrin aparılması üçün istifadə olunan mənbələr bir qədər fərqli olub.

Mümkün ən yaxşı beynəlxalq müqayisənin aparılmasına nail olmaq üçün müvafiq metodlardan istifadə olunub. Bununla belə, müqayisəli nəticələrin şərh edilməsi zamanı məlumat məhdudiyyətləri və FYİ metodologiyasında istifadə olunan anlayışlardakı fərqlər nəzərə alınmalıdır.

> “Fəal yaşlanmanın təşviq edilməsi bütün maraqlı tərəflər – dövlət, yaşlı insanlar və cavan nəsil üçün faydalı ola bilər.

Müvafiq indeksin tərtib edilməsi müxtəlif ölkələrə millətlərarası müqayisələrdən faydalı dərslər çıxarmaq imkanı verir. Müqayisəli təhlillər yaşlanan əhalinin üzləşdiyi müxtəlif dərəcəli çətinlikləri müəyyən etməyə kömək edir ki, bu da qarşılıqlı öyrənməni asanlaşdırır. Beləliklə, Azərbaycan üçün tərtib edilən FYİ müvafiq qanunverici dairələrə ölkədəki yaşlı insanların fəal yaşlanma təcrübələri barədə daha yaxşı təsəvvürə malik olmaq imkanı yaradacaq. Eyni zamanda, nəticələrin Azərbaycanda yaşlanan cəmiyyətə yönəlik ölkə siyasətinin monitorinqinin aparılması, həyata keçirilməsi və qiymətləndirilməsi üçün tədbiq edilə bilən FYİ (və bunun təkmilləşdirilmiş forması) kimi alətlərin istifadəsinə əlavə maraq yaradacağına ümid edilir.

Azərbaycan üçün FYİ-nin əsas nəticələri aşağıdakılardır:

- 28 Aİ ölkəsi ilə müqayisədə məşğulluq sahəsində göstəricilər daha aşağıdır, lakin digər sahələrdə, xüsusilə "Cəmiyyətdə iştirakçılıq" və "Fəal yaşlanma potensialı və fəal yaşlanma üçün əlverişli mühit" sahələrində nəticələr daha qənaətbəxşdir. Məşğulluq səviyyəsinin aşağı olması iş imkanlarının məhdud olması səbəbindən yaşlı insanların təqaüd yaşından sonra iş tapmaqda çətinlik çəkməsi ilə izah oluna bilər. Hazırki yaşlı nəslin qadınları üçün məşğulluq imkanlarının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması zəruridir.
- Aİ ölkələrinin müvafiq ortalama göstəricisi ilə müqayisədə Azərbaycandakı yaşlı insanlar könüllü fəaliyyətlə daha az məşğul olsalar da, onların siyasi iştirakçılığı daha yüksəkdir. Əksər Aİ ölkəsindəki yaşlı insanlardan fərqli olaraq Azərbaycandakı yaşlılar nəvələrinə və ailələrindəki digər yaşlılara daha çox qayğı göstərir. Bunun səbəbi daha çox Azərbaycanda uşaq baxım mərkəzlərinin, eləcə də yaşlılara uzunmüddətli qayğı xidmətlərinin məhdud olmasıdır. Ortalama Aİ göstəricisi ilə müqayisədə Azərbaycandakı yaşlı insanlar fiziki fəaliyyətlərlə daha çox məşğul olur. Lakin ölkədə yaşlı insanların qarşılanmamış tibbi və uzunmüddətli qayğı ehtiyacları yüksəkdir və dövlət tərəfindən təxirəsalınmaz diqqət tələb edir.
- Azərbaycanda 60 yaşında qalan ömür uzunluğu və gözlənilən sağlam illərin payı davamlı olaraq artır. Bunun əksinə, yaşlı insanların psixoloji rifah durumu Aİ ölkələrində müşahidə olunan müvafiq göstəricilərdən daha aşağıdır. Beləliklə, yaşlı əhalinin psixoloji sağlamlığına xüsusi diqqət yetirməklə fəal yaşlanmanı təşviq edən sosial siyasətin formalaşmasına təcili ehtiyac var.

Azərbaycan üçün tərtib edilən FYİ, Avropaya daxil olmayan ölkələrdə FYİ çərçivəsinin istifadəsinin məqsədəuyğunluğunu, eləcə də bir ölkədə fəal yaşlanma ilə bağlı daha yaxşı təsəvvürün formalaşmasını, həm də bu sahədə irəliləyişlərin monitorinqinin aparılmasının təmin edilməsində faydalı olduğunu nümayiş etdirir. Təhlillər göstərir ki, yaşlı insanlar üçün effektiv sosial təminat sistemi sürətlə yaşlanan cəmiyyətlərin maraqlarına cavab verməklə, yaşlılıq dövründə həyat keyfiyyətinin artmasına töhfə verməklə və yaşlanan cəmiyyətin ehtiyaclarını qarşılamaq üçün fəal yaşlanma ilə bağlı ideya və prinsipləri ehtiva etməlidir. Azərbaycan kontekstinə uyğunlaşdırılmış FYİ indikatorlarının hazırlanmasına yönələn və fəal yaşlanmanın sosial determinantları ilə bağlı cəmiyyətin mədəniyyət xüsusiyyətlərini nəzərə alan əlavə tədqiqatların aparılması tövsiyə olunur.

Bunu da xüsusi qeyd etmək lazımdır ki, FYİ statistik bir indeks deyil, insanlarda fəal yaşlanma meyillərinin izlənməsini və düşüncələrin dəyişməsini təmin edən bir vasitə olaraq qəbul edilməlidir. Bu səbəblə, Dövlət Statistika Komitəsi tərəfindən ev təsərrüfatı sorğularının keçirilməsi və ya yaşlanma ilə əlaqəli uzunmüddətli müayinələr vasitəsilə mütəmadi olaraq yaşlı əhalinin nə dərəcədə fəal yaşlandığının monitorinqinin aparılması, və beləcə bu sahədə məlumat boşluğunun aradan qaldırılmasının təmin edilməsi və tendensiyaların və dəyişikliklərin təhlilinə imkan yaradılması ciddi şəkildə tövsiyə olunur.

# 6 İSTİNADLAR

Bennett, R. & Zaidi, A. (2016). Yaşlanma və inkişaf: Cins mövzusunun yenidən gündəmə gətirilməsi. *İnkişaf etməkdə olan ölkələrdə yaşlanma üzrə beynəlxalq Jurnal,* 1, 5-19.

Clarke, A. & Warren, L. (2007). Gələcəklə bağlı ümidlər, qorxular və gözləntilər: yaşlı insanların hekayələri bizə fəal yaşlanma barədə nə bəhs edir? *Yaşlanma və Cəmiyyət,* 27, 465-488.

Fernández-Ballesteros, R., Caprara, G., Schettini, R., Bustillos, A., Mendoza-Núñez, V., Orosa, R. & Zamarrón, M. D. (2013). Universitet Proqramlarının Yaşlılar üçün Səmərəsi. Mədəniyyətlə bağlı və qrup stereotiplərindəki dəyişikliklər, yaşlanmanın dərk edilməsi və emosional tarazlıq. *Təhsil gerontologiyası*, 39, 119-131.

Mansfield, E. (2018). Texnologiya şirkətləri üçün ən yaxşı ölkələr: 2018-ci il reytinqi. https://venturebeat.com/2018/06/10/the-best-countries-for-tech-companies-2018-rankings/ saytından alınıb.

Mills, M., Präg, P., Tsang, F., Begall, K., Derbyshire, J., Kohle, L., . . . Hoorens, S. (2014). Aİ Üzv Dövlətlərində uşaq baxımı xidmətlərindən istifadə və Barselona məqsədlərinə doğru irəliləyiş.

Parry, J., Um, J. & Zaidi, A. (2018). Asiya-Sakit Okean regionunda fəal yaşlanmanın monitorinqi: Yaşlanma üzrə Beynəlxalq Madrid Fəaliyyət Proqramının (MIPAA) gələcək icrası üçün tövsiyələr. *İnkişaf etməkdə olan Ölkələrdə Yaşlanma üzrə Beynəlxalq Jurnal,* 2, 82-98.

Qureshi, H. & Walker, A. (1989). *Qayğıkeş Münasibət: Yaşlı İnsanlar və Onların Ailələri,* London, Macmillan.

Ranzijn, R. (2010). Fəal yaşlanma – narjinallaşmış və əlverişsiz şəraitdə olan yaşlıları sıxışdırmağın başqa bir üsulu? Aborigen yaşlıları nümunə kazus kimi. *Sağlamlıq Psixologiyası Jurnalı,* 15, 716-723.

Rowe, J. W. & Kahn, R. L. (1998). *Uğurlu yaşlanma,* Nyu-York, Panteon.

Sidorenko, A. & Zaidi, A. (2013). MDB ölkələrində fəal yaşlanma: mahiyyət, çətinliklər və həll yolları. *Cari Gerontologiya və Geriatriya Araşdırması,* Məqalə ID 261819, 1-17.

Studer, N. (2012). Azərbaycanda yoxsulluğa qarşı mübarizə, Azərbaycanda Sosial Müdafiə N5.

Birləşmiş Millətlər Təşkilatı, İqtisadi və Sosial Məsələlər Departamenti, Əhali Bölməsi. 2019. *Dünya Əhalisi Perspektivləri, 2019*, BMT, Nyu-York

Um, J., Zaidi, A., Choi, S. (2019). Koreyada Fəal Yaşlanma İndeksi - Çin və Aİ ölkələri ilə Müqayisə, *Asiya Sosial İş və Siyasət İcmalı,* 13(1), s 87-99

Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası/Avropa Komissiyası (2015) "Fəal Yaşlanma İndeksi 2014: Analitik Hesabat", Avropa Komissiyasının Məşğulluq üzrə Baş Direktorluğu tərəfindən birgə maliyyələşdirilən Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (Cenevrə) ilə müqavilə əsasında Sauthempton Universitetinin Yaşlanma üzrə Tədqiqat Mərkəzindən Asgar Zaidi və David Stanton tərəfindən hazırlanmış hesabat, Sosial Məsələlər və İnklüzivlik (Brüssel).

Verdiyeva, N. (2019). Azərbaycan Respublikası əhalisinin yaşlanması: sosial və iqtisadi inkişafın səbəbləri və potensialı, *Əhali və İqtisadiyyat* 3(3): 43-73

Walker, A. & Zaidi, A (2016). Avropada Fəal Yaşlanmaya dair Yeni Dəlillər. *Intereconomics,* 51, 139-144.

Walker, A. & Zaidi, A. (2017). MOPACT Siyasət icmalı 10.

Ümumdünya Səhiyyə Təşkilatı. (2002). Fəal Yaşlanma - Siyasət Çərçivəsi, ÜST-nin Yaşlanma üzrə 2-ci BMT Ümumdünya Assambleyasına töhfəsi. Madrid, İspaniya.

Zaidi, A., Gasior, K., Hofmarcher, M. M., Lelkes, O., Marin, B., Rodrigues, R., Schmidt, A., Vanhuysse, P. & Zolyomi, E. (2013). Fəal yaşlanma indeksi 2012. Ümumi anlayış, metodologiya və yekun nəticələr. *Tədqiqat Memorandumu/Metodoloji Hesabat.* Vyana: Avropa Mərkəzi Vyana.

Zaidi, A., Gasior, K., Zolyomi, E., Schmidt, A., Rodrigues, R. & Marin, B. (2017). Avropada fəal və sağlam yaşlanmanın ölçülməsi. *Avropanın Sosial Siyasət Jurnalı,* 27, 138-157.

Zaidi, A., Parry, J. & Um, J. (2018). Yaşlanma üzrə Madrid Beynəlxalq Fəaliyyət Planının icrasına nəzarət etmək üçün alətlər dəstinin hazırlanması: Asiya-Sakit Okean regionunun konteksti. Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiyasının qarşıdan gələn hesabatı, Banqkok: ESCAP.

Zaidi, A., Um, J., Xiong, Q. & Parry, J. (2019). Fəal Yaşlanma üzrə Müqayisəli Tədqiqat: Çində siyasət sənədlərinin hazırlanması üçün Aİ üzv dövlətlərinin təcrübəsi. Aİ-Çin Sosial Müdafiə İslahatı Layihəsi.

Zaidi, A., Um, J. (2019) ASEAN + 3 üzrə Yeni Asiya Fəal Yaşlanma İndeksi, *Asiya Sosiologiyası Jurnalı*, 48(4), 523-558

Zaidi, A., Um, J. (2021) Yeni Asiya Fəal Yaşlanma İndeksi: İki Asean Üzv Ölkələri Arasında Ginsiyət Fərqlilikləri üzrə Kazus, İndoneziya və Tayland, *Asiya-Sakit Okean Dayanıqlı İnkişaf Jurnalı,* 28 (1), səh. 33-64.

# ƏLAVƏ A1: SORĞU ANKETİ – FYİ

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| 1 | **Region** | Bakı<br>Abşeron<br>Gəncə-Qazax<br>Şəki-Zaqatala<br>Lənkəran<br>Quba-Xaçmaz<br>Aran<br>Yuxarı Qarabağ<br>Dağlıq Şirvan |
| 2 | **Təvəllüdünüz (məs: 22 May, 1930?** | |
| 3 | **Yaşınız** | 55–59<br>60–64<br>65–69<br>70–74 |
| 4 | **Cinsiniz** | Kişi<br>Qadın |
| 5 | **Bitirdiyiniz ən yüksək təhsil səviyyəsi hansıdır?** | Təhsilsiz<br>İbtidai<br>Ümumi orta<br>Tam orta<br>Peşə-ixtisas (peşə təlimi, texniki kollec, texniki peşə məktəbi)<br>Ali (universitet dərəcəsi) |
| 6 | **Ailə vəziyyətiniz** | Subay<br>Evli<br>Dul<br>Boşanmışam<br>Evli, lakin ayrılmış<br>Partnyorum ilə yaşayıram (kəbinsiz/ nikahsız) |
| 7 | **Yaşayış yeriniz** | Kənd<br>Qəsəbə<br>Şəhər |
| 8 | **Dini mənsubiyyətiniz** | Islam<br>Pravoslav Xristian<br>İudaizm<br>Digər<br>Dini mənsubiyyətim yoxdur |
| 9 | **Hansı işlə məşğulsunuz? (qeyd: əgər respondent həm təqaüdə çıxdığını, həm də ev işi ilə məşğul olduğunu bildirirsə, təqaüdü seçin)** | Dövlət qulluqçusu<br>Təşkilat/şirkət işçisi<br>Xidmət/satış işçisi<br>Fermer<br>Fəhlə/ixtisassız işçi/ Sənətkar<br>Ev işi/ailəyə kömək<br>Təqaüdçü<br>Əlilliyi olan şəxs, əmək qabiliyyəti olmayan<br>Digər |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| 10 | **Ödənişli işdən, pensiyadan və ya sosial yardımdan əldə etdiyiniz aylıq gəliriniz nə qədərdir?** | |
| 11 | **Özünüzü hansı etnik qrupa aid hesab edirsiniz?** | Azərbaycanlı<br>Yəhudi<br>Talış<br>Ləzgi<br>Avar<br>Rus<br>Türk<br>Digər |
| 12 | **Ev təsərrüfatı (ailə) başçısı ilə qohumluq əlaqəniz nədən ibarətdir?** | Ev təsərrüfatı başçısı<br>Həyat yoldaşı<br>Övlad<br>Valideyn<br>Nənə/baba<br>Nəvə<br>Digər |
| 13 | **Covid-19 pandemiyasından əvvəl muzdlu və ya özünüməşğul işçi kimi hər hansı ödənişli işlə məşğul olurdunuzmu??** | Bəli<br>Xeyr |
| 14 | **Covid-19 pandemiyasından əvvəl ödənişli əmək fəaliyyəti ilə məşğul olmasanız belə, həmin vaxt müddət uzaqlaşdığınız və ya qayıdacağınızı gözlədiyiniz bir işiniz və ya biznesiniz var idimi?** | Bəli<br>Xeyr<br>Artıq qəbul olduğum yeni işimə başlamağı gözləyirəm |
| 15 | **Covid-19 pandemiyasından əvvəl həftədə neçə saat işləyirdiniz?** | |
| | Əmək müqaviləsinə əsasən | 20 saatdan az<br>20 - 24 saat<br>25 - 29 saat<br>30 - 34 saat<br>35 - 40 saat<br>41 - 45 saat<br>45 saatdan çox |
| | Faktiki iş vaxtına əsasən | 20 saatdan az<br>20 - 24 saat<br>25 - 29 saat<br>30 - 34 saat<br>35 - 40 saat<br>41 - 45 saat<br>45 saatdan çox |
| 16 | **Heç də hər kəsin öz mövcud iş qrafikindən məmnun olmadığını göstərən əlamətlər mövcuddur. Hazırkı saat hesabı əmək haqqınızın dəyişməyəcəyini fərz etsək, aşağıdakılardan hansına uyğun işləmək istəyərdiniz?** | Daha az<br>Eyni<br>Daha çox |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| 17 | **Növbəti əmək haqqı mərhələsində sizə seçim imkanı təklif edilsə, aşağıdakı iki variantdan hansına üstünlük verərdiniz?** | Əmək haqqının artması (eyni iş saatları üçün)<br>Daha qısa iş vaxtı (eyni həftəlik və ya aylıq ödənişlə)<br>Bilmirəm |
| 18 | **Ev işi: Adətən, hansı tezlikdə ev işlərində iştirak edirsiniz (məsələn, yemək hazırlamaq, təmizlik etmək, paltar yumaq, bazarlıq etmək, quşları yemləmək və ya bitkilərə qulluq?** | Hər gün<br>Həftədə 3-5 gün<br>Həftədə bir və ya iki dəfə<br>Daha az<br>Heç vaxt |
| 19 | **Uşaqlara, nəvələrə qulluq: Ödənişli işiniz xaricində adətən uşaqlarınıza, nəvələrinizə, nəticələrinizə hansı tezlikdə qulluq edirsiniz?** | Hər gün<br>Həftədə 3-5 gün<br>Həftədə bir və ya iki dəfə<br>Daha az<br>Heç vaxt<br>Yoxdur |
| 20 | **Yaşlılara qulluq: Ödənişli işiniz xaricində, yaşlı və ya əlilliyi olan qohumlarınıza hansı tezlikdə qulluq edirsiniz?** | Hər gün<br>Həftədə 3-5 gün<br>Həftədə bir və ya iki dəfə<br>Daha az<br>Heç vaxt<br>Yoxdur |
| 21 | **Son 12 ay ərzində aşağıdakı təşkilatlar vasitəsilə ödənişsiz könüllülük işlərində hansı tezlikdə iştirak etmisiniz?** | |
| | İcma əsaslı və sosial xidmətlər (məsələn, yaşlılara, gənclərə, əlilliyi olan şəxslərə və ehtiyacı olan digər insanlara yardım edən təşkilatlar). | Hər həftə<br>Hər ay<br>Daha az<br>Heç vaxt |
| | Təhsil, mədəniyyət, idman/peşə birlikləri | Hər həftə<br>Hər ay<br>Daha az<br>Heç vaxt |
| | Xeyriyyə təşkilatları (ianə, maliyyə vəsaitlərinin toplalanması, təşviqatn) | Hər həftə<br>Hər ay<br>Daha az<br>Heç vaxt |
| | Sosial hərəkatlar (məsələn, ətraf mühit, insan hüquqları ilə bağlı) | Hər həftə<br>Hər ay<br>Daha az<br>Heç vaxt |
| | Digər könüllü təşkilatları | Hər həftə<br>Hər ay<br>Daha az<br>Heç vaxt |
| 22 | **Son 12 ay ərzində aşağıdakı siyasi fəaliyyətlərə qoşulmusunuzmu?** | |
| | Həmkarlar ittifaqı, siyasi partiya yaxud siyasi fəaliyyət qrupunun iclasında (məsələn, Partiya, Həmkarlar İttifaqı, Vətən Cəbhəsi, Müharibə Veteranları Birliyi, Fermerler İttifaqı, Qadınlar İttifaqı və Gənclər İttifaqı) | Bəli<br>Xeyr |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| | Etiraz aksiyalarında yaxud nümayişlərdə iştirak (təşkilat komitəyə malik olan) | Bəli<br>Xeyr |
| | Petisiya (elektron məktub yaxud onlayn) imzalanması (məsələn: sosial problemin həllinə dəstək çağırışına qoşulmaq) | Bəli<br>Xeyr |
| | Bir siyasətçi və ya dövlət məmuru ilə əlaqə saxlamaq (ictimai xidmətlərdən istifadə məqsədilə rutin xarakterli əlaqələr istisna olmaqla) | Bəli<br>Xeyr |
| 23 | **Aşağıdakı təşkilatlardan, klublardan və ya cəmiyyətlərdən hər hansı birinin üzvüsünüz? Uyğun gələnlərin hamısını seçin** | Dini qruplar<br>Sosial klublar (məs. özəl əmanət Klubu, yaşlılar klubu, və s.)<br>Asudə vaxtın səmərəli təşkili / mədəniyyət/idman ilə əlaqəli qruplar (məs, yaşlılar üçün sinif və s.)<br>Məzun assosiasiyaları, doğma yurd icmaları, ailə məclisləri<br>Könüllü qruplar<br>Siyasi partiyalar, QHT-lər, maraq qrupları<br>Digər<br>Heç biri |
| 24 | **Üzvü olduğunuz [19-cu sualda seçilmiş] təşkilata gəldikdə, onun fəaliyyətində hansı tezlikdə iştirak edirsiniz?** | Demək olar ki hər gün (həftədə dörd gündən çox)<br>Həftədə bir dəfə<br>Həftədə 2-3 dəfə<br>Ayda bir dəfə<br>Ayda iki dəfə (iki həftədən bir)<br>İldə bir və ya iki dəfə<br>İldə 3 və ya 4 dəfə (2-4 aydan bir)<br>İldə 5-6 dəfə (hər iki aydan bir)<br>Son bir il ərzində demək olar ki, heç vaxt<br>Demək olar ki, heç vaxt |
| 25 | **Son 12 ay ərzində siz hansı tezlikdə idmanla və ya fiziki fəaliyyətlə məşğul olmusunuz?** | Hər gün<br>Həftədə 3-5 gün<br>Həftədə 1-2 dəfə<br>Daha az<br>Heç vaxt |
| 26 | **Özünüz də daxil olmaqla, evinizdə neçə nəfər yaşayır?** | |
| 27 | **Ev təsərrüfatınızda kiminlə yaşayırsınız?** | Yalnız özüm (tək nəfərlik ev təsərrüfatı)<br>Həyat yoldaşımla (yalnız iki yetkin şəxs)<br>Uşaqlarımla<br>Uşaqlarım və nəvələrimləəyat yoldaşım və uşaqlarımla<br>Həyat yoldaşım, uşaqlarım və nəvələrimlə<br>Digər (göstərin) |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| 28 | **Hansı növ evdə yaşayırsınız?** | Şəxsi kirayə ev<br>Şəxsi evim (ipotekalı)<br>Şəxsi evim (ipotekasız)<br>Yerli səlahiyyətli orqandan kirayələdiyim mənzil<br>Digər |
| 29 | **Bu ərazidə (Respondentin yaşadığı yerli ərazi və ya qəsəbə) qaranlıq düşəndən sonra tək gəzərkən özünüzü nə dərəcədə təhlükədə hiss edirsiniz?** | Çox təhlükəli<br>Təhlükəli<br>Təhlükəsiz<br>Çox təhlükəsiz |
| 30 | **Covid-19 pandemiyasından əvvəl, siz ümumi təhsil sistemi daxilində və ya xaricində hər hansı kurs, seminar, konfransda iştirak edirdinizmi, yaxud fərdi dərslər alırdınızmı?** | Bəli<br>Xeyr |
| 31 | **Covid-19 pandemiyasından əvvəl hər hansı onlayn təhsil kurslarında/dərslərində iştirak edirdinizmi?** | Bəli<br>Xeyr |
| 32 | **Son 12 ay ərzində, elə hal olubmu ki, ev təsərrüfatınız aşağıdakıları qarşılaya bilməsin?** | |
| | Kirayə haqqını, ipotekanı və ya kommunal xərcləri | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |
| | Gözlənilməyən xərclərlə üzləşmək (məsələn: xəstəxanaya yerləşdirmə, toy, dəfn mərasimləri) | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |
| | Mütəmadi olaraq ət və ya zülal qəbul etmək | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |
| | Tətilə getmək | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |
| 33 | **Ev təsərrüfatınızda aşağıdakılar mövcuddurmu?** | |
| | Televizor | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |
| | Soyuducu | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |
| | Kondisioner və ya ventilyator | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| | Paltaryuyan maşın | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |
| | Avtomobil və ya motosiklet | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |
| | Mobil/stasionar telefon | Xeyr, maddi imkanım olmayıb<br>Bəli, maddi imkanım olub<br>Başqa səbəblər (istəmirəm/ehtiyacım yoxdur) |
| 34 | **Ümumilikdə götürdükdə, sağlamlığınız barədə nə deyərdiniz?** | Çox pis<br>Pis<br>Qənaətbəxş<br>Yaxşı<br>Çox yaxşı |
| 35 | **Səhhətinizlə bağlı uzun müddət davam edən bir problem və ya xroniki xəstəliyiniz varmı? (Ən azı 6 ay davam etmiş və ya davam etməsi gözlənilən)** | Bəli<br>Xeyr |
| 36 | **Cavabınız "Bəli"dirsə hansı xroniki xəstəlikləriniz var? (müvafiq olanları dairəyə alın)** | Bel ağrısı<br>Sümük-əzələ ağrısı<br>Ürək-damar xəstəlikləri<br>Tənəffüs yollarının xroniki xəstəlikləri<br>Qaraciyər xəstəlikləri<br>Böyrək xəstəliyi<br>Hipertoniya<br>Hiperlipidemiya<br>Diabet<br>Podaqra<br>Həzm sistemi pozğunluqları<br>Digər: |
| 37 | **Son 6 ay ərzində sağlamlıq problemləri ilə əlaqədar, digər insanların etdikləri adi şeyləri etmək qabiliyyətiniz məhdudlaşıbmı?** | Bəli, kəskin məhdudlaşıb<br>Bəli, kəskin olmasa da, məhdudlaşıb<br>Xeyr, qətiyyən məhdudlaşmayıb |
| 38 | **Son 12 ay ərzində neçə dəfə yıxılmısınız?** | Yıxılmamışam<br>Bir dəfə<br>Iki dəfə<br>Üç dəfə və daha çox |
| 39 | **Son 12 ay ərzində hansı tezlikdə özününüzü tənha hiss etmisiniz?** | Hər gün<br>Həftədə 3-5 gün<br>Həftədə 1-2 dəfə<br>Nadir hallarda<br>Heç vax |
| 40 | **Son 12 ay ərzində, tibbi müayinə və ya müalicəyə çox ehtiyac duyduğunuz, lakin istifadə edə bilmədiyiniz hal olubmu?** | Bəli<br>Xeyr |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| 41 | **Tibbi sığortanız varmı?** | Bəli<br>Xeyr |
| 42 | **Sosial məsafə qaydaları tətbiq edilməzdən əvvəl** | |
| | Özümü şən və yaxşı əhvalda hiss etmişəm | Hər zaman (14 gün)<br>Əksər vaxtlarda (11-13 gün)<br>Zamanın yarısından çoxunda (7-10 gün)<br>Zamanın yarısından azında (4-6 gün)<br>Bəzən (1-3 gün)<br>Heç vaxt |
| | Özümü sakit və rahat hiss etmişəm | Hər zaman (14 gün<br>Əksər vaxtlarda (11-13 gün)<br>Zamanın yarısından çoxunda (7-10 gün)<br>Zamanın yarısından azında (4-6 gün)<br>Bəzən (1-3 gün)<br>Heç vaxt |
| | Özümü fəal və enerjili hiss etmişəm | Hər zaman (14 gün<br>Əksər vaxtlarda (11-13 gün)<br>Zamanın yarısından çoxunda (7-10 gün)<br>Zamanın yarısından azında (4-6 gün)<br>Bəzən (1-3 gün)<br>Heç vaxt |
| | Yuxudan durarkən özümü gümrah və dincəlmiş hiss edirəm | Hər zaman (14 gün<br>Əksər vaxtlarda (11-13 gün)<br>Zamanın yarısından çoxunda (7-10 gün)<br>Zamanın yarısından azında (4-6 gün)<br>Bəzən (1-3 gün)<br>Heç vaxt |
| | Gündəlik həyatım mənə maraqlı olan məqamlarla doludur. | Hər zaman (14 gün<br>Əksər vaxtlarda (11-13 gün)<br>Zamanın yarısından çoxunda (7-10 gün)<br>Zamanın yarısından azında (4-6 gün)<br>Bəzən (1-3 gün)<br>Heç vaxt |
| 43 | **Son 3 ayda orta hesabla hansı tezliklə internetdən istifadə etmisiniz (onlayn qəzet oxumaq, əyləncə, Facebook və s. üçün)?** | İnternetdən istifadə etmirəm/İnternetim yoxdur<br>Ayda bir dəfədən az<br>Ən azı ayda bir dəfə (ancaq həftəlik yox)<br>Ən azı həftədə bir dəfə (lakin hər gün yox)<br>Hər gün və ya demək olar ki hər gün |
| 44 | **Sosial ünsiyyət: Hər hansı sosial məsafə qaydaları tətbiq edilməzdən əvvəl dostlarınız, qohumlarınız və ya həmkarlarınızla sosial çərçivədə hansı tezliklə görüşürdünüz?** | Ayda bir dəfədən az<br>Ayda bir dəfə<br>Ayda bir neçə dəfə<br>Həftədə bir dəfə<br>Həftədə bir neçə dəfə<br>Hər gün və ya demək olar ki hər gün |
| 45 | **Aşağıda insanların həyatlarını və ya hisslərini təsvir etmək üçün istifadə etdikləri ifadələrin siyahısı təqdim olunur. Əgər ümumiyyətlə sizə şamil etmək olarsa, hər ifadənin sizə nə qədər şamil olunduğunu bilmək istərdik. (Zəhmət olmasa, hər xanada işarə qoyun)** | |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| | Yaşım istədiyim şeyləri etməyimə mane olur | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Elə hiss edirəm ki, başıma gələnlər mənim nəzarətimdə deyil | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Özümü bir şeylərdən kənarda qalmış kimi hiss edirəm | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Etmək istədiklərimi edə bilirəm | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Ailə öhdəliklərim istədiklərimi etməyimə mane olur | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Pul çatışmazlığı, etmək istədiyim şeyləri etməyimə mane olur | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Hər yeni günün başlamasını səbrsizliklə gözləyirəm | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Həyatımın mənalı olduğunu hiss edirəm | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Keçmişi böyük məmuniyyət hissi ilə xatırlayıram<br>Ümumi götürdükdə, dönüb həyatıma baxarkən xoşbəxtlik hiss edirəm | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Özmümü çox enerjili hiss edirəm | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Hiss edirəm ki, həyat fürsətlərlə doludur | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| | Gələcəyin mənim üçün yaxşı göründüyünü hiss edirəm | Tez-tez<br>Bəzən<br>Nadir hallarda<br>Heç vaxt |
| 46 | **Aşağıda razılaşa və ya razılaşmaya biləcəyiniz beş mülahizə təqdim olunur. Aşağıdakı 1-7 ballıq şkaladan istifadə edərək, hər bəndin əvvəlində münasib rəqəmi yerləşdirməklə həmin bəndlə münasibətinizi bildirin. Səmimi və dürüst cavablar verməyinizi xahiş edirik.** | |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| | Bir çox cəhətdən həyatım mənim üçün ideala yaxındır. | 7 - Tam razıyam<br>6 - Razıyam<br>5 - Müəyyən qədər razıyam<br>4 - Nə razıyam nə də narazı<br>3 -Müəyyən qədər razı deyiləm<br>2 - Razı deyiləm<br>1 - Qətiyyən razı deyiləm |
| | Həyat şəraitim əladır | 7 - Tam razıyam<br>6 - Razıyam<br>5 - Müəyyən qədər razıyam<br>4 - Nə razıyam nə də narazı<br>3 -Müəyyən qədər razı deyiləm<br>2 - Razı deyiləm<br>1 - Qətiyyən razı deyiləm |
| | Həyatımdan məmnunam | 7 - Tam razıyam<br>6 - Razıyam<br>5 - Müəyyən qədər razıyam<br>4 - Nə razıyam nə də narazı<br>3 -Müəyyən qədər razı deyiləm<br>2 - Razı deyiləm<br>1 - Qətiyyən razı deyiləm |
| | İndiyə qədər həyatımda istədiyim mühüm şeyləri əldə etmişəm | 7 - Tam razıyam<br>6 - Razıyam<br>5 - Müəyyən qədər razıyam<br>4 - Nə razıyam nə də narazı<br>3 -Müəyyən qədər razı deyiləm<br>2 - Razı deyiləm<br>1 - Qətiyyən razı deyiləm |
| | Həyatımı yenidən yaşamaq imkanım olsaydı, demək olar ki, heç nəyi dəyişməzdim | 7 - Tam razıyam<br>6 - Razıyam<br>5 - Müəyyən qədər razıyam<br>4 - Nə razıyam nə də narazı<br>3 -Müəyyən qədər razı deyiləm<br>2 - Razı deyiləm<br>1 - Qətiyyən razı deyiləm |
| 47 | **Gündəlik həyat fəaliyyətlərinizə dair suallar verəcəm. Aşağıdakıları gündəlik fəaliyyətləri yerinə yetirərkən digər insanların köməyinə ehtiyacınız varmı?** | |
| | Yemək | Bəli<br>Xeyr |
| | Geyinmək | Bəli<br>Xeyr |
| | Hərəkət (bir yerdən başqa yerə getmək) | Bəli<br>Xeyr |
| | Ayaqyolundan istifadə etmək | Bəli<br>Xeyr |
| | Duş qəbul etmək | Bəli<br>Xeyr |
| 48 | **Aşağıdakıları gündəlik fəaliyyətləri yerinə yetirərkən digər insanların köməyinə ehtiyacınız varmı?** | |
| | Bazarlıq | Bəli<br>Xeyr |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| | Dərman qəbul etmək | Bəli<br>Xeyr |
| | Telefondan istifadə etmək | Bəli<br>Xeyr |
| | Maliyyə işləri | Bəli<br>Xeyr |
| | Nəqliyyatdan istifadə | Bəli<br>Xeyr |
| | Yemək hazırlamaq | Bəli<br>Xeyr |
| | Yüngül ev işi görmək | Bəli<br>Xeyr |
| | Paltar yumaq | Bəli<br>Xeyr |
| 49 | **Son zamanlarda bir az ləng hərəkət etdiyinizi hiss edirsinizmi?** | Bəli<br>Xeyr |
| 50 | **Hal-hazırda müalicəsi davam edən hər hansı xroniki xəstəliyiniz varmı?** | Bəli<br>Xeyr |
| 51 | **Bu xroniki xəstəliklər ciddi nəzarət altındadırmı?** | Bəli<br>Xeyr |
| 52 | **Yaşınızdakı biri ilə müqayisədə daha sağlam olduğunuzu düşünürsünüzmü?** | Bəli<br>Xeyr |
| 53 | **Telefon nömrəsi** | |
| 54 | **Ünvan** | Qaradağ<br>Binəqədi<br>Nizami<br>Nərimanov<br>Nəsimi<br>Pirallahı<br>Sabunçu<br>Səbail<br>Suraxanı<br>Xətai<br>Xəzər<br>Yasamal |
| 55 | **Ünvan** | Abşeron<br>Xızı<br>Sumqayıt<br>Xırdalan |
| 56 | **Ünvan** | Ağstafa<br>Daşkəsən<br>Gədəbəy<br>Gəncə<br>Goranboy<br>Göygöl<br>Qazax<br>Qovlar<br>Naftalan<br>Samux<br>Şəmkir<br>Tovuz<br>Dəliməmmədli |

| Sual nömrəsi | Sual | Cavab |
|---|---|---|
| 57 | **Ünvan** | Balakən<br>Qax<br>Qəbələ<br>Oğuz<br>Şəki<br>Zaqatala |
| 58 | **Ünvan** | Astara<br>Cəlilabad<br>Lerik<br>Lənkəran<br>Masallı<br>Yardımlı<br>Liman<br>Göytəpə |
| 59 | **Ünvan** | Şabran<br>Xaçmaz<br>Quba<br>Qusar<br>Siyəzən<br>Xudat |
| 60 | **Ünvan** | Mingəçevir<br>Şirvan<br>Ağcabədi<br>Ağdaş<br>Beyləqan<br>Bərdə<br>Biləsuvar<br>Göyçay<br>Hacıqabul<br>İmişli<br>Kürdəmir<br>Neftçala<br>Saatlı<br>Sabirabad<br>Salyan<br>Ucar<br>Yevlax<br>Zərdab |
| 61 | **Ünvan** | Xankəndi<br>Ağdam<br>Cəbrayıl<br>Füzuli<br>Xocalı<br>Xocavənd<br>Şuşa<br>Tərtər<br>Horadiz<br>Ağdərə |
| 62 | **Ünvan** | Ağsu<br>İsmayıllı<br>Qobustan<br>Şamaxı |

# ƏLAVƏ A2: AZƏRBAYCAN, 28 Aİ ÖLKƏSİ, ÇİN VƏ CƏNUBİ KOREYA ÜZRƏ FYİ VƏ SAHƏLƏRİNƏ XAS HESABLAMALARIN NƏTİCƏLƏRİ

| Ölkə | Məşğuliyyət | Cəmiyyətdə iştirakçılıq | Müstəqil və təhlükəsiz həyat | Fəal yaşlanma potensialı və fəal yaşlanma üçün əlverişli mühit | FYİ ümumi indeks | Sıra |
|---|---|---|---|---|---|---|
| İsveç | 43.4 | 22.9 | 78.6 | 69.2 | 44.9 | 1 |
| Danimarka | 35.8 | 19.6 | 79.0 | 65.1 | 40.3 | 2 |
| Niderland | 33.9 | 22.4 | 78.9 | 61.8 | 40.0 | 3 |
| Birləşmiş Krallıq | 35.8 | 21.6 | 73.7 | 61.3 | 39.7 | 4 |
| Finlyandiya | 33.7 | 20.5 | 79.0 | 60.5 | 39.0 | 5 |
| İrlandiya | 30.6 | 24.1 | 74.9 | 60.0 | 38.6 | 6 |
| Çin | 40.7 | 18.3 | 59.6 | 53.2 | 37.3 | 7 |
| Fransa | 24.1 | 22.8 | 75.9 | 59.1 | 35.8 | 8 |
| Lüksemburq | 21.9 | 22.2 | 75.7 | 63.6 | 35.7 | 9 |
| Almaniya | 34.4 | 13.6 | 74.4 | 55.8 | 35.4 | 10 |
| Cənubi Koreya | 45.2 | 4.0 | 60.1 | 60.2 | 35.3 | 11 |
| Estoniya | 39.7 | 12.8 | 67.3 | 47.5 | 34.6 | 12 |
| Çex Respublikası | 28.0 | 18.8 | 71.2 | 54.3 | 34.4 | 13 |
| Kipr | 31.4 | 18.1 | 68.0 | 50.4 | 34.2 | 14 |
| Avstriya | 24.7 | 18.2 | 73.8 | 58.2 | 34.1 | 15 |
| İtaliya | 23.0 | 24.1 | 69.0 | 53.4 | 34.0 | 16 |
| Belçika | 21.0 | 20.2 | 72.5 | 60.3 | 33.7 | 17 |
| Portuqaliya | 32.6 | 14.1 | 67.3 | 52.1 | 33.5 | 18 |
| **Azərbaycan** | **18.6** | **26.3** | **58.6** | **55.2** | **32.6** | **19** |
| İspaniya | 23.3 | 17.8 | 69.8 | 56.3 | 32.6 | 20 |
| Latviya | 32.0 | 13.8 | 58.7 | 48.2 | 31.5 | 21 |
| Litva | 30.5 | 14.7 | 66.2 | 45.3 | 31.5 | 22 |
| Malta | 20.1 | 17.3 | 70.1 | 57.1 | 31.5 | 23 |
| Xorvatiya | 21.7 | 18.7 | 67.5 | 52.8 | 31.4 | 24 |
| Bolqarıstan | 25.1 | 12.5 | 62.7 | 52.2 | 29.9 | 25 |
| Sloveniya | 19.1 | 16.3 | 74.2 | 50.0 | 29.8 | 26 |
| Rumıniya | 31.0 | 12.7 | 61.7 | 40.9 | 29.6 | 27 |
| Slovakiya | 21.9 | 13.7 | 65.8 | 47.1 | 28.5 | 28 |
| Macarıstan | 19.3 | 15.4 | 68.0 | 46.9 | 28.3 | 29 |
| Polşa | 22.4 | 12.1 | 64.9 | 47.9 | 28.2 | 30 |
| Yunanıstan | 20.4 | 13.7 | 64.8 | 45.8 | 27.6 | 31 |

Qeyd: Ölkələr ümumi nəticəyə görə sıralanıb.

# ƏLAVƏ A3: AZƏRBAYCAN, 28 Aİ ÖLKƏSİ, ÇİN VƏ CƏNUBİ KOREYADA YAŞLI KİŞİLƏR ÜZRƏ FYİ VƏ SAHƏLƏRİNƏ XAS HESABLAMALARIN NƏTİCƏLƏRİ

| Ölkə | Məşğuliyyət | Cəmiyyətdə iştirakçılıq | Müstəqil və təhlükəsiz həyat | Fəal yaşlanma potensialı və fəal yaşlanma üçün əlverişli mühit | FYİ ümumi indeks | Sıra |
|---|---|---|---|---|---|---|
| İsveç | 47.0 | 22.5 | 79.8 | 69.7 | 46.2 | 1 |
| Niderland | 40.8 | 23.5 | 80.1 | 63.0 | 43.1 | 2 |
| Danimarka | 40.4 | 21.0 | 79.1 | 65.0 | 42.4 | 3 |
| Birləşmiş Krallıq | 41.3 | 20.7 | 75.4 | 62.2 | 41.7 | 4 |
| Çin | 50.2 | 18.2 | 61.7 | 54.0 | 40.9 | 5 |
| Cənubi Koreya | 61.2 | 2.8 | 65.6 | 59.3 | 40.8 | 6 |
| İrlandiya | 36.7 | 22.0 | 76.7 | 60.2 | 40.3 | 7 |
| Lüksemburq | 25.6 | 26.9 | 77.1 | 65.4 | 39.2 | 8 |
| Finlyandiya | 34.5 | 18.6 | 80.2 | 59.1 | 38.4 | 9 |
| Kipr | 40.6 | 17.5 | 69.5 | 53.6 | 38.0 | 10 |
| Almaniya | 39.2 | 14.6 | 76.1 | 56.2 | 37.7 | 11 |
| Çex Respublikası | 34.5 | 21.1 | 72.1 | 53.4 | 37.4 | 12 |
| Fransa | 26.1 | 24.0 | 77.9 | 58.2 | 36.9 | 13 |
| İtaliya | 29.8 | 23.8 | 70.4 | 54.8 | 36.8 | 14 |
| Avstriya | 30.4 | 19.4 | 74.4 | 59.2 | 36.7 | 15 |
| Portuqaliya | 38.7 | 14.1 | 68.8 | 53.7 | 36.1 | 16 |
| Belçika | 24.9 | 21.8 | 74.6 | 59.6 | 35.7 | 17 |
| Malta | 31.3 | 17.9 | 69.4 | 57.5 | 35.7 | 18 |
| **Azərbaycan** | **22.7** | **28.6** | **61.6** | **57.1** | **35.5** | **19** |
| Xorvatiya | 27.8 | 19.6 | 68.6 | 54.1 | 34.3 | 20 |
| İspaniya | 27.7 | 16.6 | 71.5 | 57.0 | 34.1 | 21 |
| Estoniya | 39.4 | 11.7 | 69.1 | 43.8 | 33.6 | 22 |
| Litva | 33.7 | 16.0 | 67.4 | 43.9 | 32.9 | 23 |
| Sloveniya | 23.8 | 17.2 | 75.7 | 49.9 | 31.9 | 24 |
| Rumıniya | 36.7 | 11.8 | 63.6 | 42.5 | 31.8 | 25 |
| Bolqarıstan | 28.4 | 12.3 | 67.1 | 52.5 | 31.4 | 26 |
| Latviya | 33.4 | 9.8 | 61.2 | 47.6 | 30.8 | 27 |
| Slovakiya | 27.5 | 12.9 | 67.4 | 47.8 | 30.5 | 28 |
| Polşa | 29.2 | 10.8 | 66.7 | 46.8 | 30.0 | 29 |
| Macarıstan | 22.6 | 15.7 | 69.8 | 47.7 | 29.9 | 30 |
| Yunanıstan | 27.3 | 11.7 | 66.6 | 47.4 | 29.8 | 31 |

Qeyd: Ölkələr ümumi nəticəyə görə sıralanıb.

# ƏLAVƏ A4: AZƏRBAYCAN, 28 Aİ ÖLKƏSİ, ÇİN VƏ CƏNUBİ KOREYADA YAŞLI QADINLAR ÜZRƏ FYİ VƏ SAHƏLƏRİNƏ XAS HESABLAMALARIN NƏTİCƏLƏRİ

| Ölkə | Məşğuliyyət | Cəmiyyətdə iştirakçılıq | Müstəqil və təhlükəsiz həyat | Fəal yaşlanma potensialı və fəal yaşlanma üçün əlverişli mühit | FYİ ümumi indeks | Sıra |
|---|---|---|---|---|---|---|
| Isveç | 39.9 | 23.3 | 77.8 | 69.0 | 43.7 | 1 |
| Finyandiya | 33.0 | 22.0 | 78.0 | 61.9 | 39.4 | 2 |
| Danimarka | 31.3 | 18.4 | 78.9 | 65.5 | 38.4 | 3 |
| Birləşmiş Krallıq | 30.6 | 22.4 | 73.9 | 60.7 | 38.1 | 4 |
| Niderland | 27.1 | 21.5 | 77.7 | 60.9 | 37.0 | 5 |
| İrlandiya | 24.5 | 25.9 | 73.3 | 59.9 | 36.9 | 6 |
| Estoniya | 40.2 | 13.5 | 66.2 | 49.9 | 35.4 | 7 |
| Fransa | 22.3 | 21.8 | 73.9 | 60.0 | 34.8 | 8 |
| Çin | 31.7 | 18.5 | 57.7 | 52.3 | 33.8 | 9 |
| Almaniya | 29.9 | 12.7 | 72.8 | 55.7 | 33.3 | 10 |
| Lüksemburq | 18.1 | 18.0 | 74.2 | 62.4 | 32.5 | 11 |
| Latviya | 31.1 | 16.1 | 57.5 | 48.8 | 32.0 | 12 |
| Belçika | 17.2 | 18.9 | 70.7 | 60.9 | 31.9 | 13 |
| Çexiya | 22.1 | 17.0 | 70.4 | 55.3 | 31.8 | 14 |
| Avstriya | 19.4 | 17.4 | 73.5 | 57.4 | 31.7 | 15 |
| İtaliya | 16.7 | 24.3 | 67.7 | 52.3 | 31.6 | 16 |
| Portuqaliya | 27.5 | 14.1 | 66.3 | 51.0 | 31.4 | 17 |
| İspaniya | 19.2 | 18.8 | 68.7 | 55.6 | 31.3 | 18 |
| Cənubi Koreya | 32.2 | 5.1 | 54.0 | 61.1 | 30.7 | 19 |
| Litva | 28.3 | 14.0 | 65.5 | 46.5 | 30.7 | 20 |
| Kipr | 22.6 | 18.5 | 66.8 | 47.5 | 30.6 | 21 |
| **Azərbaycan** | **15.2** | **24.4** | **56.1** | **53.6** | **30.2** | **22** |
| Xorvatiya | 16.3 | 18.1 | 65.0 | 52.0 | 28.9 | 23 |
| Bolqarıstan | 22.4 | 12.6 | 59.7 | 52.0 | 28.6 | 24 |
| Sloveniya | 14.6 | 15.6 | 73.3 | 50.2 | 27.9 | 25 |
| Ruminya | 26.2 | 13.3 | 59.6 | 39.6 | 27.7 | 26 |
| Malta | 8.5 | 16.8 | 70.6 | 56.0 | 27.1 | 27 |
| Macarıstan | 16.6 | 15.1 | 66.9 | 46.5 | 27.1 | 28 |
| Slovakiya | 17.0 | 14.2 | 64.7 | 46.8 | 26.8 | 29 |
| Polşa | 16.6 | 13.1 | 63.5 | 48.8 | 26.5 | 30 |
| Yunanıstan | 14.2 | 15.4 | 63.2 | 44.2 | 25.5 | 31 |

Qeyd: Ölkələr ümumi nəticəyə görə sıralanıb.

Azərbaycan Respublikasının
Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi

UNFPA

BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi
(UNFPA)
BMT-nin 50 illiyi küçəsi 3
BMT-nin Bakı ofisi, 4-cü mərtəbə
Bakı, AZ1001
Azərbaycan

azerbaijan.unfpa.org